www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-10 fevral 2025-ci il Şənbə № 24 (8634) Qiyməti 60 qəpik

## Xəbər

**Kremldən AZAL-ın təyyarəsi ilə bağlı qəribə açıqlama**

yazısı səh.2-də

# MOSKVA BAKI İLƏ GƏRGİNLİYİ KÖRÜKLƏYİR - KREML DAYANMASA...

Azərbaycan-Rusiya münasibətlərində soyuq rüzgarlar güclənir; Kreml tezliklə "daşları" yığmasa, təyyarənin vurulması faktları beynəlxalq məhkəməyə təqdim olunacaq...



yazısı səh.8-də

## Gündəm

**ABŞ-nin anti-Azərbaycan nəşrlərinə zərbə - Bakıdan reaksiya**



"Azadlıq" radiosu və "Amerikanın səsi"nin də pulu kəsilə bilər

yazısı səh.9-da

**ABŞ Ermənistana yerini göstərdi - Bakıya üstünlük verəcək**

yazısı səh.12-də

**Aİ "casus"ları bu dəfə Laçın və Zəngilan istiqamətində...**

yazısı səh.3-də

**Ticarət müharibələri - Azərbaycanı gözləyən sınaqlar**

yazısı səh.4-də

**Bakı yollarındakı "kamikadze"lər - Nə hüquqları var, nə də...**

yazısı səh.5-də

**Girov götürülən azərbaycanlıların yaxınları intizarda**

yazısı səh.3-də

**Böyrək həsrətində olanlara şad xəbər - Orqan donorluğunda inqilab**

yazısı səh.10-da

**Gözəllik salonlarında təşviş: reklamlar sökülüb, işıqlar söndürülüb**

yazısı səh.13-də

**"Kağız formada olan jurnalların ləğvi risklidir" - Osman Gündüzdən xəbərdarlıq**

yazısı səh.3-də

**"Zon"dakı fərqli şərtlər, əfv-amnistiya şansı**

yazısı səh.11-də

**Kollec müəllim yetişdirməyəcək? - Təhsilin bu pilləsini necə dirçəltməli...**

yazısı səh.15-də

## SOS: uşaqların həyatı təhlükədə - İntihar həddinə çatdıran oyunlar

Ölümə aparan internet oyunları Yardımlıda can aldı, Bakıda isə məktəbliyə verilən naməlum qrafalı vərəqəni polis araşdırır - psixoloqdan çağırış

yazısı səh.5-də



**Okampodan daha bir həyasızlıq: "Bakıya qarşı iddia götürülsə belə..."**

yazısı səh.6-da



Mehdi Söbhani

**İranın İrəvandakı səfiri köhnə ampluasında - Bakıya qarşı demarş**

yazısı səh.7-də



Anar Əliyev

**Sahil Babayevin xələfi məlum oldu - Dosye**

yazısı səh.3-də

# 31 yaşdan yuxarı əsgərlərin evə buraxılması başlandı



Azərbaycanda hərbi xidmətə çağırış yaşının azaldılması ilə əlaqədar hazırda yaşı 31,5-dən çox olanların ordudan tərxisinə başlanılıb. Teleqraf.az-a məlumatlı mənbələrdən bildirilib. Qeyd olunub ki, tərxis prosesi bütün Silahlı Qüvvələrdə həyata keçirilir.

Xatırladaq ki, Prezident İlham Əliyev ötən il dekabrın 29-da Cinayət, Miqrasiya və İnzibati Xətalar məcəllələrində "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişikliyi təsdiqləyib.

Dəyişikliklərə əsasən, çağırışçılar ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşdan 30 yaşadək Azərbaycanın kişi cinsli vətəndaşları olacaqlar. Buna qədər isə həmin yaş həddi 18-dən 35-dək idi.

Həmçinin Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçularının xidmət keçmək üçün son yaş həddi 36,5-dən 31,5-ə endirilib.



## Prezidentdən Qarabağ Universiteti ilə bağlı fərman

Qarabağ Universitetinin Klinikası publik hüquqi şəxs yaradılır. "Yeni Müsavat" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. Fərmanda qeyd olunub ki, Klinika Xankəndidə fəaliyyət göstərən Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edən, tibb sahəsində elmi tədqiqatlar aparan, regionda əhalinin sağlamlığının qorunmasında iştirak edən publik hüquqi şəxsdir. Klinikanın təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Prezidentinə, Klinikanın yenidən təşkili və ləğv edilməsi isə Elm və Təhsil Nazirliyinə həvalə edilib. Nazirlər Kabineti Fərmandan irəli gələn məsələləri həll etmək, Elm və Təhsil Nazirliyinə isə Klinikanın nizamnaməsini iki ay müddətində təsdiq etmək tapşırılıb. Qarabağ Universitetinə Klinikanın saxlanılma xərclərinin maliyyələşdirilməsi üçün 5 milyon manat ayrılıb. Klinika mərhələlərlə tam özünümaliyyələşdirmə səviyyəsinə çatanadək növbəti illərin dövlət büdcəsinin layihələrində Qarabağ Universitetinin fəaliyyətinin maliyyələşdirilməsinə ayrılacaq vəsaitlərdə Klinikanın saxlanılması xərcləri üçün zəruri maliyyə vəsaitinin nəzərdə tutulması təmin ediləcək.




## Qeydə alınmış cinayətlər 100 faiz açılıb - Hərbi Prokurorluq

**"Səmərəli fəaliyyət nəticəsində 2025-ci ilin yanvar ayında Hərbi Prokurorluqda qeydə alınmış cinayətlər 100 faiz açılıb". "Yeni Müsavat" xəbər verir ki, bunu hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev rəsmi mətbuata açıqlamasında deyib.**

Onun sözlərinə görə, Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin, həmçinin birgə səmərəli fəaliyyətin, o cümlədən görülmüş qabaqlayıcı tədbirlərin nəticəsində 2025-ci ilin yanvar ayında Azərbaycan Respublikası Silahlı Qüvvələrində Əmri icra etməmə (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 328-ci maddəsi), Fərarilik (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 334-cü maddəsi), Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 350-ci maddəsi), Maşınları idarəetmə və istismar qaydalarını pozma (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsi), Qəsdən sağlamlığa ağır zərər vurma (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 126-cı maddəsi) və Qəsdən adam öldürmə (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120-ci maddəsi) cinayətləri qeydə alınmayıb.

## Lənkəranda qəbiristanlığı su basıb

Lənkəranda intensiv yağış nəticəsində qəbiristanlığı su basıb. "Yeni Müsavat"ın verdiyi xəbərə görə, 2 gündür Lənkəranda yağan intensiv yağışlar nəticəsində Lənkəran rayonunun Şiləvar kəndi ərazisində yerləşən "Yeni qəbiristanlıq" yağış suları ilə dolub. Onlarla qəbir su altında qalıb, qəbirlərə ziyan dəyib. FHN-in Cənub Regional Mərkəzinin əməkdaşları əraziyə cəlb olunub, tədbirlər görülür. Hazırda rayon ərazisində yağışlı hava şəraiti davam edir.



## Küləyə görə xəbərdarlıq edildi - bu tarixə qədər davam edəcək

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Dəniz və Liman Agentliyinin Gəmi Hərəkətinin İdarəedilməsi Mərkəzi küləkli hava şəraiti ilə bağlı gəmilərə xəbərdarlıq edib. Bu barədə Dövlət Dəniz və Liman Agentliyi məlumat yayıb. Xəbərdarlığa əsasən, fevralın 7-dən Xəzər Dəniz Akvatoriyasında müşahidə olunacaq şimal-qərb küləyi fevralın 9-u səhər saatlarına kimi davam edəcək. Belə ki, həmin günlər ərzində küləyin sürətinin 18-23 m/s, arabir 25-28 m/s, açıq dənizdə isə 30 m/s-dək güclənəcəyi gözlənilir. Dalğanın hündürlüyünün isə 2-3 m. sonrakı inkişafda 4.5-6.5 metrə çatacağı proqnozlaşdırılır.

## Kremldən AZAL-ın təyyarəsi ilə bağlı son açıqlama

Rusiya prezidenti Vladimir Putin "Azərbaycan Hava Yolları"nın təyyarəsinin qəzaya uğraması ilə bağlı açıqlama verməyi planlaşdırmır. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. O, Rusiya prezidentinin AZAL-ın təyyarə qəzası ilə bağlı bəyanatla çıxış etməyi planlaşdırmadığını qeyd edib.



## Sumqayıtda lotereya oğruları tutuldu

Sumqayıt şəhəri ərazisində lotereya satışı məntəqəsindən soyğunçuluq yolu ilə lotereya biletlərinin talanması barədə polisə məlumat daxil olub. Sumqayıt ŞPİ 4-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 40 yaşlı İ.Sarıyev müəyyən olunaraq saxlanılıb. Səbail rayonu ərazisində isə bir nəfərin soyğunçuluq yolu ilə mobil telefonunu talamaqda şübhəli bilinən 20 yaşlı M.Dadaşzadə müəyyən olunaraq saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.

## Bu gündən Mingəçevir-Xocalı-Xankəndi-Şuşa avtobus reysi açılır

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən 8 fevral tarixindən Mingəçevirdən Şuşa şəhərinə müntəzəm avtobus reysi istifadəyə veriləcək. Məqsəd "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məskunlaşan vətəndaşlara keyfiyyətli nəqliyyat xidmətlərinin göstərilməsi, habelə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin nəqliyyat sisteminə inteqrasiyasının təmin olunmasıdır. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən verilən məlumata görə, reyslər Mingəçevir Avtovağzalından hər gün saat 08:00-da, Şuşa şəhərindən Mingəçevirə isə 16:00-da həyata keçiriləcək. Mingəçevir-Şuşa-Mingəçevir reysi üzrə bir istiqamət üçün biletin qiyməti 5,50 manat təşkil edir. Bu reys üzrə Xocalı və Xankəndi şəhərləri aralıq məntəqələri kimi müəyyən edilib. Mingəçevir-Xocalı aralıq məntəqəsi üçün biletin qiyməti 4,50 manat, Mingəçevir - Xankəndi aralıq məntəqəsi üçün biletin qiyməti 5 manatdır. Biletləri "biletim.az" portalı üzərindən yalnız onlayn qaydada əldə etmək olar. Qeyd edək ki, biletləri əldə edərkən işğaldan azad olunmuş ərazilərə girişlə bağlı buraxılış qaydalarına uyğun olaraq icazələrin olması mütləqdir.

## Sınaq imtahanları başlanır - tarix açıqlandı

Dövlət İmtahan Mərkəzi (DİM) martın 16-da I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanı modelinə uyğun sınaq imtahanı keçirəcək. Bu imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən ali təhsil müəssisələrinə qəbul imtahanının II mərhələsi üzrə keçiriləcək yeganə sınaq imtahanıdır. İmtahanın məzmunu və təşkilati forması qəbul imtahanlarının modelinə tam uyğundur. Dövlət İmtahan Mərkəzi digər özəl qurumların keçirdikləri sınaq imtahanlarının məzmunu və təşkilinə cavabdehlik daşımır və abituriyentlərə yalnız Mərkəzin rəsmi sınaq imtahanında iştirak etmələrini tövsiyə edirik. Sınaq imtahanına qeydiyyat 26 fevral saat 23:59-dək aparılacaq.

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025

# Aİ “casus”ları bu dəfə Laçın və Zəngilan istiqamətində...



**Avropa İttifaqının Ermənistandakı Müşahidə Missiyası Azərbaycanla sərhəddə müşahidələrini davam etdirir. “Yeni Müsavat” xəbər verir ki, avropalı müşahidəçilər bu dəfə bir neçə maşında Laçın və Zəngilan rayonları ilə həmsərhəd ərazilərə gələrək, vizual müşahidələr aparıblar. Onlar binoklla ətrafı, o cümlədən Azərbaycan ərazilərini izləyiblər.**

Müşahidəçilərin hərəkətləri Azərbaycan sərhədçilərinin tam nəzarəti altında olub. Azərbaycan sərhədçiləri Laçın rayonunun Fətəlipəyə və Zəngilan rayonunun Seyidli kəndi ərazisindən Avropa ittifaqının Müşahidə Missiyasının üzvlərinin həm avtomobillərlə, həm də piyada hərəkətlərini nəzarət altında saxlayıb və qeydə alıb.

Xatırladaq ki, Avropa İttifaqının Ermənistandakı Müşahidə Missiyası mütəmadi olaraq Azərbaycanla sərhəd boyu müşahidələr aparır. Bu barədə Azərbaycan mətbuatında mütəmadi məlumatlar və görüntülər yayılır. Bir müddət əvvəl media Qazax rayonu ilə həmsərhəd ərazidə avropalı müşahidəçilərinin fəaliyyəti barədə məlumat və görüntü yaymışdı. Qeyd edək ki, Avropa İttifaqının Ermənistanın Azərbaycanla sərhədindəki 200 nəfərlik müşahidə missiyasının mandatı daha iki il - 19 fevral 2027-ci ilədək uzadıb.




# Sahil Babayevin xələfi məlum oldu - Dosye

**Anar Rəhim oğlu Əliyev Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Prezidentin digər Sərəncamı ilə Anar Əliyev Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilib. Anar Rəhim oğlu Əliyev 1980-ci ildə Bakı şəhərində anadan olub.**

O, 2000-ci ildə Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsinin bakalavr pilləsini bitirib. 2002-ci ildə magistr pilləsini başa vuraraq magistr dərəcəsi, 2006-cı ildə hüquq fəlsəfə doktoru dərəcəsi alıb.

A.Əliyev 2000-2006-cı illərdə 1 saylı yerli iqtisad məhkəməsində məhkəmə iclasının katibi, 2006-2008-ci illərdə İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin baş məsləhətçisi, 2008-2018-ci illərdə isə həmin şöbənin müdiri vəzifələrində işləyib.

O, Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2012-ci il tarixli Sərəncamı ilə Azərbaycan iqtisadiyyatının inkişafında xidmətlərinə görə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilib. Dövlət başçısının 3 fevral 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasının 2018-ci ilə qədər üzvü olub. Anar Əliyev hazırkı vəzifəsinə qədər əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsində çalışıb. Evlidir, iki övladı var.

# “Kağız formada olan jurnalların ləğvi risklidir, çünki... ” - Osman Gündüz

**Məlum olduğu kimi, ötən gün elm və təhsil naziri Emin Əmrullayev ümumtəhsil sistemində yeni rəqəmsal təhsil platforması haqqında məlumat verib. Nazir qeyd edib ki, növbəti tədris ilində “rəqəmsal məktəb” platforması sayəsində valideynlər övladlarının dərs prosesini onlayn şəkildə izləyə biləcək, kağız jurnal ləğv olunacaq.**



Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün fikrincə, “rəqəmsal məktəb” platformasının böyük əhəmiyyəti olsa da, hələlik kağız formada olan jurnalların ləğvi, yalnız e-jurnal saxlamaq risklidir:

“Əslində xeyli müddət olardı ki, nazirlik yenidən məktəblərin rəqəmsallaşmasını, məktəblərdə e-jurnal, e-gündəlik məsələlərini işə salmışdı. Yəni on illər öncə start verilən, lakin uğurlu alınmayan "Elektron məktəb" layihəsinin fəaliyyətini nazirlik bir neçə il öncə yeni keyfiyyətdə canlandırmışdı. Yeni rəqəmsal transformasiya layihələri icra olunurdu. İndi görünən odur ki, nazirlik yetərincə rəqəmsallaşmış, elektron jurnal və elektron gündəliyə malik olan, ümumiyyətlə tədris və idarəetmə üzrə keyfiyyətli datası olan məktəbləri vahid bir rəqəmsal platformada birləşdirməyə qərar verib.

Hələlik 324 məktəbin bu rəqəmsal platformaya qoşulması nəzərdə tutulub. Platformada şagirdlərin dərslərə onlayn qoşulmaq, tapşırıqları yerinə yetirmək və təhsil prosesini izləmək imkanı yaradılıb. İndiyədək bu istiqamətdə ETN-də mövcud olan rəqəmsal təhsil resurslarının platformaya inteqrasiyası onun əhəmiyyətini xeyli artıracaq. Görünən odur ki, burada valideynlərə yönəlik istiqamət daha qabarıqdır. Yəni valideynlər üçün uşaqların tədrisinə nəzarət, məktəblə əlaqələrin effektiv qurulmasına daha əlçatan imkanlar verilib.

His olunur ki, ETN-in datası digər dövlət qurumlarının informasiya sistemlərinə inteqrasiya olunub. Əlçatan SİMA imza ilə “rəqəmsal məktəb”ə daxil olan valideynlər dərhal orada övladlarını görə bilirlər, məktəblə əlaqə qura bilirlər. Eyni zamanda son bir neçə ildə RİNN-in “Onlayn Azərbaycan” layihəsinin reallaşması ilə xeyli sayda məktəblərin keyfiyyətli internet bağlantısı imkanları da genişlənib. Müəllimlərin rəqəmsal bacarıqları artıb. Düşünürəm ki, indiki anda, təhsil sistemində formalaşmış datanın, inteqrasiyaların və rəqəmsallaşmanın nəticəsi olaraq yeni dəyər formalaşdırmaq, belə platformanı işə salmaq doğru və faydalı bir yanaşmadır. Amma hələlik kağız formada olan jurnalların ləğvi, yalnız e-jurnal saxlamaq riskli ola bilər. Hansısa keçid dövrü müəyyən etmək, toplanmış təcrübəni analiz etmək, təhlükəsizlik mexanizmlərini və e-jurnallar datasının toplanması ənənəsini formalaşdırdıqdan sonra bu məsələyə baxmaq doğru olardı.

Düşünürəm ki, “rəqəmsal məktəb” platforması təhsilin rəqəmsal transformasiyasını xeyli sürətləndirəcək. Platforma həm məktəblərin idarəetmə sisteminin təkmilləşdirilməsinə, həm də təhsil prosesinin effektivliyinin artırılmasına mühüm töhfə verəcək".

❑ Xalidə GƏRAY,
Musavat.com

# Girov götürülən azərbaycanlıların yaxınları xəbər ala bilmir




**Eritreyada saxlanılan “CMS Pəhləvan”, “CMS İgid” və “CMS-3" gəmilərinin azərbaycanlı heyətinin yaxınları ”Caspian Marine Services B.V." şirkətinin qarşısında aksiya keçirib. Aksiyanın məqsədi gəmilərin buraxılmasına dair danışıqlar prosesi barədə məlumat almaq olub. Girov götürülən Saleh Poladovun atası Vələd Poladov bildirib ki, oğlundan 3 aydır xəbər ala bilmirlər: “Biz şirkətdən məlumat almaq istəyirik. Artıq 3 ay keçib. Bunun sonu necə olacaq? Gəmidə olarkən onlar bizimlə həftədə bir dəfə əlaqə saxlayırdılar. İndi isə heç bir xəbər yoxdur”. Mahmud Rüstəmovun atası Əmrah Rütəmov deyib ki, hadisə ilə bağlı bir neçə dəfə şirkət rəsmiləri ilə, eləcə də Xarici İşlər Nazirliyində görüşdə olublar: “Xarici İşlər Nazirliyində də olmuşuq, amma heç bir nəticə olmayıb. Biz dövlətimizdən övladlarımızı bizə qovuşdurmağını xahiş edirik. Gəmini nə vaxt istəsələr qurtararlar, bu şirkətin öz işidir. Ən son şirkətdən 2 həftə öncə demişdilər ki, 3 günə sənədləri götürüb çıxacaqlar. Dəqiq vaxt deyən yoxdur. 18 nəfərlik heyət artıq 3 aydır ailəsindən uzaqdır”. Daha sonra girov saxlanılan şəxslərin yaxınlarını sözügedən şirkətin direktor müavini Aqşin Rəhimov qəbul edib. Görüş media nümayəndələri üçün qapalı keçirilib.**

Görüşdən sonra görüş iştirakçıları bildirib ki, onları qəbul edən Aqşin Rəhimov prosesin gecikməsinə bir neçə səbəbin olduğunu deyiblər və əlavə olaraq vurğulanıb ki, Eritreyada Azərbaycanın diplomatik nümayəndəliyi yoxdur. Belə ki, məsələ ilə ilə bağlı viza verilmir, müraciət edilsə də imtina cavabı gəlir.

Şirkətdən saxlanılanların ailələrinə onu da bildiriblər ki, onların azad edilməsi istiqamətində işlər davam etdirilir. Eritreya dövləti ərazisində saxlanılmış gəmilərin yoxlama prosesi hələ də davam etdirilir.

Bu barədə APA-ya “Caspian Marine Services B.V.” şirkətindən bildirilib.

Qeyd edilib ki, prosesin sürətləndirilməsi və yoxlamanın mümkün ən qısa vaxtda sonlandırılaraq gəmilərin sərbəst buraxılmasının təmin edilməsi üçün “Caspian Marine Services B.V.” şirkəti Eritreya dövlətinin müvafiq qurumları ilə işə cəlb olunmuş hüquq şirkətləri, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (səfirliklər və konsulluqlar cəlb olunmaqla)və Dövlət Dəniz və Liman Agentliyi vasitəsilə əlaqələrini davam etdirməkdədir. Vurğulanıb ki, aparılan danışıqların nəticəsi olaraq, gəmilər daha geniş əraziyə malik limana gətirilib və gəmi heyəti gəmidən düşərək sərbəst gəzinti zonalarında vaxt keçirmək imkanları ilə təmin edilib.

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025



# Ticarət müharibələri - Azərbaycanı gözləyən sınaqlar

## Natiq Cəfərli: "Hər bir hökumətin mümkün təsirlərə qarşı mütləq iş planı olmalıdır"

**"Qlobal ticarət sistemi artan gərginliklə üzləşir. Türkiyə iqtisadi siyasətini yeni çağırışlara uyğunlaşdırmaqdadır". Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan milli məşğulluq strategiyasının təşviqi ilə bağlı keçirilən toplantıda bildirib.**

"Müasir beynəlxalq sistem çətin dövrünü yaşayır. Geosiyasi rəqabət yeni səviyyəyə çatıb və əsas oyunçular arasında ticarət müharibəsi güclənəcək", - Ərdoğan qeyd edib.

Onun sözlərinə görə, Türkiyə hökuməti riskləri təhlil edir, orta və uzunmüddətli iqtisadi hədəflərə düzəlişlər edir: "Biz ölkəyə təhdidləri minimuma endirmək üçün ticarət yol xəritəsini nəzərdən keçiririk".

Qeyd edək ki, ABŞ prezidenti Donald Trampın yaxın müttəfiqləri, qonşuları, rəqiblərinə qarşı başlatdığı rüsum siyasətinin bütün dünyada mövcud ticarət nizamının pozacağı, ABŞ özü və rüsum tətbiq olunan ölkələrdə inflyasiyanın sürətlənəcəyi, bunun isə son nəticədə qlobal iqtisadiyyata ağır zərbə vuracağına dair gözləntilər yaradıb. Xüsusilə Çinin ABŞ-a cavab olaraq bu ölkədən idxal olunan mallara qarşı rüsumlar tətbiq etməsi enerji bazarlarında böyük təhdidlər formalaşdırmaqdadır. Artıq bir çox mərkəzlərdə Trampın qərarlarının təsirlərinə qarşı addımların planlaşdırılmasına başlanıb. Bu sırada dünyanın ikinci iqtisadi mərkəzi olan Avropa İttifaqının hazırlıqları diqqəti cəlb edir. Brüsseldə yaradılan xüsusi işçi qrup həm Trampın



mümkün əlavə rüsum artımlarına, həm də digər istiqamətlərdəki analoji addımlarının yaratdığı yeni şərtlərə uyğunlaşmaq üçün tədbirlər hazırlayır.

ABŞ-ın yeni administrasiyanın addımları qlobal iqtisadiyyat üçün hansı çağırışlar formalaşdırır? Baş verənlər Azərbaycan iqtisadiyyatı üçün nələr vəd edir?

Sualları cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli hesab edir ki, Trampın məqsədi rüsumları real olaraq tətbiq etmək deyil: "Hadisələr göstərir ki, Trampın tarif "müharibələri", kəskin ritorikası artıq bəhrəsini verir - Kolumbiya, Panama, Kanada, Meksika geri addım atdı, növbədə və Çindir.Tarif ritorikası danışıqlar üçün təməl yaradır, qarşı tərəfi güzəştlərə vadar edir. 2023-cü ildə (2024-ün tam məlumatları yoxdur), Meksika ixracının 79 faizi ABŞ-a olub, ümumi ixarac 472 milyard dolları keçib. Əgər 25 faiz taarif artımı qalsaydı, Meksika iqtisadiyyatına böyük zərbə dəyəcəkdi. Amma Meksika geri addım atdı - qeyri-leqal miqrantlarla mübarizə üçün ABŞ sərhədinə 10 min ordu göndərdi, sərhədi möhkəmləndirəcəyinə, narkotrafiklə mübarizəyə söz verdi. Deməli, Trampın taktikası işləyir-işlədi.

Yaxşı, taarif müharibələrindən ABŞ uduzmurmu - təbii ki, uduzur, uduza bilər. Əvvəl onu deyim ki, ticarət müharibələrinin qurbanları adi alıcılar olur. Çünki tariflər yüksəldikcə daxili bazarda da qiymətlər artır. Məsələn, ABŞ Çindən gələn məhsulları yaxın zamanda haradansa əvəz edə bilməz. Hətta bu, 2-3 ilə də mümkün deyil. O cümlədən ABŞ-nin Meksikadan, Kanadadan gələn məhsulları yerli istehsal ilə əvəz etməsi illər alar bilər. Buna görə də taariflərin artımı ABŞ-da inflyasiyaya ciddi təsir göstərə bilər. Ona görə də, düşünürəm ki, Trampın əsas istəyi, sadəcə, danışıqlar mövqeyini gücləndirməkdir. Yəni tarif müharibələri ilə danışıqlarda üstünlük qazanaraq müəyyən güzəştlər qoparmaqdır. Bunun daim belə olacağını düşünmürəm. Bir müddətdən sonra ABŞ danışıqlar vasitəsilə öz istəklərini alandan və yaxud da maraqları təmin edildikdən sonra tariflərə yenidən baxıla bilər".

Ekspert bildirir ki, əgər taariflər real olaraq tədbiq edilsə, orta statistik ABŞ vətəndaşının eyni məhsullara, məsələn, dünənə qədər xərclədiyi ümumi vəsait ildə 1100 dollar daha çox ola bilər: "Bu isə ABŞ seçicisinin xoşuna gəlməyəcək, çünki, Trampın əsas süarlarından biri inflyasiyanı aşağı salmaq idi. İnflyasiyanın artması Trampın populyarlığına ciddi zərbə vura bilər".

N.Cəfərlinin fikrincə, indiki halda hər bir hökumətin mümkün təsirlərə qarşı addımları ehtiva edən iş planı mütləq olmalıdır: "Azərbaycanda da belə bir planın olması son dərəcə vacibdir. Nəzərə alsaq ki, Tramp neft qiymətlərini aşağı salmağı hədəfləyir və Azərbaycanın əsas gəlir mənbəyi də neftdir, onda belə bir planın nə qədər vacib olduğunu görə bilərik".

İqtisadçı-ekspert Elman Sadıqov bildirir ki, Trampın atdığı addımların heç biri gözlənilməz deyil: "Mənim üçün baş verənlərin heç biri çok effekti yaradacaq deyil. Hətta Qəzza ilə bağlı dedikləri də - çünki Qüdsü İsrailin paytaxtı kimi tanıyan ilk prezident Trampdır. Rüsumlara gəlincə, onlar Trampın əlində istədiyini almaq vasitəsidir. O, tarifləri tətbiq etməkdən daha çox, bu görüntünü yaratmaqla ABŞ-a sərf edən şərtlər əldə etmək istəyir. Bilirsiniz, tariflər çox böyük əhəmiyyətə malik alətdir. İnkişaf etmiş ölkələrin əksəriyyəti tariflərdən müəyyən mərhələlərdə istifadə ediblər, onların sayəsində uğurlu nəticələr əldə ediblər. Lakin Trampın tətbiq etmək istədiyi tarif siyasəti ilə ABŞ üçün uğurlu nəticə əldə etmək mümkün deyil. Tramp deyir ki, ticarət balansındakı mənfi saldonu aradan qaldırmaq istəyir. Belə saldo ən böyük həcmdə Çinlə yaranıb. Bu həcm Avropa İttifaqı ilə də yetərincə böyükdür və sair. Lakin məsələ burasındadır ki, dolların dünyada əsas rezerv valyuta olmasının əsas səbəbi məhz bu mənfi saldodadır: dünyadan mal alıb, dollar ixrac etmək. Bu, Bretton-Vuds sazişində Keynsin əsas hədəflərindən biri idi: siz dolları dünyada əsas valyutaya çevirməyi istəyirsinizsə, dolları verməyi bacarmalısınız. Dolların verilməsinin incə bir yolu tapıldı: dolları verib neft alıram, həmin dolların xeyli hissəsi sonradan investisiya formasında qayıdır ABŞ iqtisadiyyatına. Bu gün dünyada Tramp da daxil olmaqla, heç bir güc bu sistemə qarşı çıxa bilməz, mümkün deyil. Çünki bu, dünya ticarətini məhv edər, dolların mövqelərini itirməsinə səbəb olar. Bunu Tramp da yaxşı bilir. Ona görə də bütün ölkələrlə ticarətdə sıfır kəsirlə ticarət etmək niyyətində deyil. Sadəcə, indi arı pətəyinə çomaq soxmaqla, öz hədəflərinə nail olmağa çalışır".

Ekspertin dediyinə görə, hazırda ABŞ üçün başlıca qəbuledilməz məqam Çinin güclənməsi ilə bağlıdır: "Çini faktiki olaraq indiki səviyyəyə çatdıran elə ABŞ-ın özüdür: texnologiyaların ixracı, Çin mallarının alınması və sair yollarla. Uzun müddət Çini varlandıran ABŞ indi onun özünə qarşı çıxmasını qəbullana bilmir. Doğrudur, Çinin hazırda vəziyyəti heç də yaxşı deyil: daşınmaz əmlak bazarındakı çökmələr bütün iqtisadiyyatı geri çəkir, daxili borclanma böyük problemə çevrilib və sair. Tramp da bu vəziyyətdən yararlanmaqla Çinin mövqelərini zəiflətmək istəyir".

E.Sadıqov hesab edir ki, Tramp uzun illər boyu ucuz Çin mallarının ABŞ-a idxalında başlıca həlqəyə çevrilən Meksikaya qarşı addımlarında haqlıdır: "Meksika həm də narkotikanın ABŞ-a axınında mühüm yer tutur. Kanada ilə bağlı da bu məsələ kəskinləşir getdikcə. Narkotika hazırda bütün dünyada hökumətləri narahat edən başlıca problemlərdən birinə çevrilir. Qardaş Türkiyədə hökumət səviyyəsində narkotik ticarətinin iqtisadiyyata yaratdığı problemlər müzakirə olunub. Yəni narkotika zərərli vərdişdən külli miqdarda valyutanın ölkədən çıxmasına gətirən böyük və qlobal qanunsuz ticarətə çevrilib. Yəni Trampın öz ölkəsində bu ticarətin qarşısını almaq istəyi təbii və zəruridir".

Tramp Meksika və Kanadaya, eləcə də Aİ-yə tarifləri real tətbiq etsə, hansı nəticələrə səbəb ola bilər? E.Sadıqov deyir ki, bu, bütün dünyada iqtisadi proseslər zəncirinin pozulmasına gətirib çıxara bilər: "İlk növbədə ABŞ və rüsum tətbiq olunan ölkələrdə inflyasiyanın kəskin sürətlənməsi, ticarət zəncirlərinin qırılması, daha sonra bu prosesin digər ölkələrə yayılması və sonunda qlobal iqtisadi böhran baş verə bilər. Bu zaman dollarla borcları olan dövlətlər onu ödəyə bilməyərək iflas edə bilərlər. Yeri gəlmişkən, Azərbaycan çox yaxşıdır ki, borclarını minimum həddə endirib. Yarana biləcək qlobal böhrandan dünyanı çıxara biləcək yegənə qüvvə isə, nə qədər qəribə də olsa, yenə ABŞ olacaq. Bu, dünyada yeni bir nizamın yaranmasına - məhz ABŞ-ın rəhbərliyi altında yaranmasına gətirib çıxaracaq. Hazırda faktiki olaraq nə BMT, nə Ümumdünya Ticarət Təşkilatı, nə də digər beynəlxlaq təşkilatlar funksiyalarını icra edə bilmirlər. Bu isə yəqin ki, yeni nizamın, yeni nizamlanma mexanizminin formalaşdırılmasına ehtiyac yaradır. Lakin bunun qəfildən və radikal addımlarla baş verməsini yəqin ki, heç Trampın özü də istəmir. Buna görə də onun rüsum siyasətindən geri çəkiləcəyi daha realdır, nəinki onları tətbiq etməyi".

Ekspert qeyd edir ki, baş verə biləcək proseslər -dolların bahalaşması, enerji bazarında qiymətlərin kəskin düşməsi Azərbaycan üçün təsirsiz keçməyəcək: "Qlobal böhran yaranacaqsa, Azərbaycanın ondan kənarda qalması mümkün deyil. Bu baxımdan, düşünürəm ki, Azərbaycan hökuməti bu sahədə öz hesablamalarını aparır, ölkə iqtisadiyyatının qorunması üçün tədbirlər hazırlayır".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Samir Şərifova daha bir vəzifə verildi



**Baş nazirin müavini Samir Şərifov Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri olub. Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. İndiyə qədər Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri Baş nazirin birinci müavini olub.**

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025

# SOS: uşaqların həyatı təhlükədə - İntihara çatdıran oyunlar...

## Ölümə aparan internet oyunları Yardımlıda bir can aldı, Bakıda isə məktəblilərə verilən naməlum qrafalı vərəqəni polis araşdırıb - mütəxəssisdən çağırış

**Yardımlının Zevin kəndində 15 yaşlı Ələkbər Şükürlü yaşadığı evdə atasına məxsus ov tüfəngindən atəş açaraq özünü öldürüb. Hadisə yerinə gələn polis və prokurorluq əməkdaşları evdən müvafiq sənədləri olan bir ədəd “TOZ” markalı ov tüfəngini götürüblər. Məlumata görə, yeniyetmənin son bir həftədir özünə qapalı olduğu və ailəsinə qarşı aqressiv davranışlar nümayiş etdirdiyi müşahidə edilib. O, intihar etməmişdən qabaq məktub yazıb. Həmin məktubda hansısa oyunda Ə.Şükürlüyə vaxt təyin edildiyi və o tarixə qədər özünü öldürməli olduğu qeyd edilib.**

Bildirək ki, Ə.Şükürlü evin sonbeşiyi və beş bacının tək qardaşı olub. Faktla bağlı Yardımlı rayon Prokurorluğunda araşdırma aparılır. Bu hadisənin ardınca daha bir məlumat yayıldı ki, Bakı şəhəri 210 nömrəli tam orta məktəbdə oxuyan şagirdə üzərində bir oyunun loqosu əks olunan və mobil nömrə yazılan kağızlar verilib. Bu iddia ilə Nurlan Mirəli adlı vətəndaş feysbuk hesabında paylaşım edib. “Bu gün 5-ci sinifdə oxuyan qızıma və onun sinif yoldaşlarına, böyük siniflərdən iki qız uşağı yaxınlaşaraq belə bir vərəq veriblər. Vərəqin bir üzünə mobil nömrə qoyulub, digər üzündə isə bir oyunun loqosu əks olunub. Və rusca ”mənə yaz" sözləri yazılıb. Bu oyunu quql üzərində araşdırdım, dünyada geniş yayılıb və uşaqlar arasında intihar edənlər belə olub. Nömrəyə bir neçə dəfə zəng vurduq, səsimizi eşidib söndürürlər".

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin əməkdaşı Elbrus İbrahimov mətbuata bildirib ki, məktəbliyə verilən naməlum qrafalı vərəqəni polis araşdırır: “Sosial şəbəkələrdə yayılan naməlum qrafalı kağızlardan məlumatlıyıq. Bununla bağlı aidiyyəti üzrə araşdırma aparılır. Araşdırmalarla vərəqdə əks olunan ifadələrin mahiyyəti aydın olacaq”.

“Məktəblilərə paylanan qrafalı vərəqələr internet platformalarında onlayn şəbəkə oyunlarında komanda formalaşdırmaq məqsədilə təşkil olunub”. Bunu DİN-in Mətbuat Xidmətinin rəisi polis polkovnik-leytenantı Elşad Hacıyev bildirib. E.Hacıyev deyib ki, iki azyaşlı tərəfindən onlayn oyuna çoxsaylı oyunçu təşviq etmək üçün vərəqələr 25 məktəbliyə verilib. Qeyd olunub ki, polis əməkdaşları tərəfindən bütün xüsuslar tam və hərtərəfli araşdırılıb və yoxlanılıb. İş üzrə əməldə ictimai təhlükəli hal aşkar olunmayıb, kriminal tərkib yoxdur. Qeyd edək ki, məktəbliyə verildiyi iddia edilən kağızdakı işarələr Koreya istehsalı “Squid game” serialından götürülüb. “Netflix”də yayımlanan serialın uşaqlar və yeniyetmələr üçün təhlükələri ola biləcəyi barədə xəbərdarlıq edilib.

Bəs çıxış yolu nədir? Uşaqlarımızı bu bəladan necə qorumalı? Son illərdə müxtəlif ölkələrdə gəncləri intihara sövq edən təhlükəli oyunların olduğu hər kəsə məlumdur. İntihar həddinə çatdıran oyunların aşağıdakılar olduğu deyilir:

1."Mavi Balina" (Blue Whale Challenge). 2016-cı ildən etibarən bir çox ölkədə yeniyetmələr arasında yayılan bu oyun gəncləri 50 gün ərzində müxtəlif psixoloji və fiziki tapşırıqları yerinə yetirməyə məcbur edir. Oyunun son mərhələsi intihar etməyi tələb edir. Bu oyun sosial şəbəkələr vasitəsilə gizli qruplarda yayıldığı üçün valideynlərin nəzarət etməsi çətin olur.

2."Momo Challenge". “WhatsApp” və digər mesajlaşma platformaları vasitəsilə yayılan bu oyunda yeniyetmələr anonim şəxslər tərəfindən müxtəlif qorxuducu tapşırıqlara məcbur edilir. Oyun iştirakçılara psixoloji təzyiqlər göstərərək onları özlərinə zərər verməyə və hətta intihara sövq edir.



3."Jonathan Galindo". Bu oyun “Mavi Balina”ya bənzəyir və əsasən sosial şəbəkələrdə maskalı profillər vasitəsilə yeniyetmələri hədəfə alır. Onlara əvvəlcə sadə tapşırıqlar verilir, lakin getdikcə zorakılıq və intiharla bağlı şərtlər qoyulur.

4."Qırmızı Bayquş" (Red Owl). Bu oyun haqqında məlumatlar az olsa da, onun da yeniyetmələri psixoloji təzyiq altında saxlayaraq intihara sövq etdiyi iddia edilir.

Mütəxəssislər qeyd edir ki, yeniyetmələri bu cür təhlükəli oyunlardan qorunması üçün ilk növbədə ailədə valideyn nəzarəti artırılmalıdır. Uşaqların internetdə hansı oyunları oynadığını və kimlərlə ünsiyyətdə olduğunu izləmək vacibdir. Həmçinin, yeniyetmə və uşaqların psixoloji vəziyyətə diqqət yetirilməlidir. Çünki qapalı və aqressiv davranışlar uşağın psixoloji problemlərlə üzləşdiyinə işarə ola bilər. Məktəblərdə və ailələrdə uşaqlara təhlükəli internet oyunları barədə məlumat verilməli, onların potensial risklərdən xəbərdar olması təmin edilməlidir.

Bundan başqa, bu məsələyə dövlət nəzarəti də gücləndirilməlidir. Yəni, bu cür oyunların yayılmasının qarşısını almaq üçün hüquq-mühafizə orqanları və kibertəhlükəsizlik strukturları daha ciddi tədbirlər görməlidirlər. Bir sözlə, ailələr və cəmiyyət birlikdə bu cür təhlükələrə qarşı mübarizə aparmalıdır.

Mövzu ilə bağlı psixoloq Azad İsazadə “Yeni Müsavat”a bildirdi ki, hələ bir neçə il əvvəl Azərbaycanda təhlükəli “Mavi balina” oyunu yayılmağa başlamışdı: “Həmin vaxt bu oyun Qazaxıstanda və Rusiyada geniş yayılmışdı, xeyli sayda məktəbli, yeniyetmə onun qurbanı olmuşdu. Azərbaycanda isə geniş yayılmasa da, hər halda gəlib çıxmışdı və bununla bağlı mənə də müraciət olunmuşdu. Sözsüz ki, bu, böyük problemdir və təkcə Azərbaycan deyil, bütün dünya üçün. Bu cür müxtəlif təhlükəli oyunlar, şəbəkələr, qruplar yaranır və onların da qurbanları əsasən yeniyetmə və uşaqlardır. Çünki bu yaş kateqoriyasında olanlar təsir altına tez düşür, aldanır”.

“Bəs nə etməli?” - sualına cavabında A.İsazadə qeyd etdi ki, ilk növbədə valideyn nəzarəti olmalıdır: “Valideyn bilməlidir ki, övladı internetdə neçə saat vaxt keçirir və harada nəyə baxır, nə işlə məşğul olur. İndi məktəblərə smartfon telefonların gətirilməsi qadağan olunur. Amma faktdır ki, 5-ci sinifdən yuxarı bütün şagirdlərin əlində smartfonlar var. Bəzən deyirlər ki, valideynlər uşaqları ilə daim əlaqədə olmaq üçün telefonu verir. Amma buna görə sadə telefonlar var, onlardan istifadə etmək olar. Yoxsa ki, bahalı smartfon telefonları uşaqlara alırlar, əlbəttə ki, uşaqlar da həmin telefonlardan təkcə əlaqə saxlamaq, dərs hazırlamaq üçün istifadə etmir, həm də müxtəlif arzuolunmaz saytlara, şəbəkələrə, oyunlara girir. Dövlətlər də çalışır ki, bu məsələləri ciddi nəzarətdə saxlasınlar, bununla bağlı müəyyən qadağalar var və sairə. Amma hesab edirəm ki, bu istiqamətdə geniş proqram olmalıdır”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Bakı yollarındakı “kamikadze”lər - Nə hüquqları var, nə də...

## Ekspertə görə, ən böyük problemləri moped sürücüləri yaradır və nömrəsiz olanları cərimə meydançasında saxlamaq lazımdır

**Kuryer işi son illərdə paytaxtda ən çox tələb olunan işlərdən birinə çevrilib. Bir çox pərakəndə satış məntəqələri və ictimai iaşə obyektlərinin bağlandığı, insanların evlərini və mənzillərini çətinliklə tərk etdiyi pandemiya dövründə çatdırılma xidmətlərinə maraq xeyli artdı. İndi getdikcə daha çox şəhər sakini onlardan istifadə edir, onların köməyi ilə vaxt kimi əvəzsiz nemətə qənaət edir.**




Lakin bu peşəyə artan tələbat müştərilər, şəhər mühitinin və özlərinin təhlükəsizliyi üçün risklərlə əlaqələndirilir, yəni çatdırılma xidmətlərinə nəzarət gücləndirilməlidir. Mütəxəssislər qeyd edir ki, ərzaq və digər malların daşınması insanlar üçün tez-tez yollarda problem mənbəyinə çevrilir. Mümkün qədər çox sifariş çatdırmaq və müvafiq olaraq daha çox qazanc əldə etmək istəyən kuryerlərin bir çoxu yol hərəkəti qaydalarına məhəl qoymur, həm özlərinin, həm də piyadaların və digər sürücülərin həyatlarına təhlükə yaradır. Bəs problemin həlli yolları nədən ibarətdir? Kuryerlərin yollarda yaratdığı təhlükəni minimuma necə endirməli?

Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan nəqliyyat üzrə ekspert Elməddin Muradlı deyib ki, ən böyük problemləri moped sürücüləri yaradır: “Onlar qəzalar törədir, başqalarının maşınlarını sürtür və avtomobillərin arasında ziqzaqvarı hərəkət edib digər nəqliyyat vasitələrinə ziyan vururlar. Onların dövlət qeydiyyat nişanı olmadığı üçün qaçıb asanlıqla məsuliyyətdən yayına bilirlər. Bir çox ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, onlar da bu problemləri yaşayıblar və sonradan çıxış yolu kimi onların dövlət qeydiyyatına alınması məsələsi təklif edilib. Azərbaycanda da bu proses ona doğru gedir. Moped sürücülərinin sui-istifadə halları bunu tələb edir”.

Ekspertin fikrincə, son dövrlər moped sürücüləri yol polisinin avtomobilləri qarşısında ziqzaqvari hərəkət edib, sonra da bunu videoya çəkirlər: “Həmin videonu Tik Tokda paylaşıb lovğalanırlar. İllər öncə bu hərəkəti "06" və "07" maşınlarını sürənlər edirdi. Moped sürücüləri vətəndaşların maşınını vurub qaçırlar. Yaxud da avtobus zolağına girirlər, ancaq nömrələri yoxdur deyə heç kim məsuliyyətə cəlb etmir. Hər yerdən manevr edib aradan çıxır. Buna görə də onların hər birinin üzərində dövlət qeydiyyat nişanı olmalıdır. Neçə vaxtdır müşahidələr aparıram. Moped sürücüləri işıqfora fikir vermədən qırmızı işıqda necə gəldi keçir. Motosiklet sürücüsü isə qırmızı işıqda dayanır. Çünki bilir ki, nömrəsi var, məsuliyyətə cəlb edilə bilər”.

E.Muradlının sözlərinə görə, mopedlərlə bağlı eybəcər mənzərənin qarşısını almaq üçün parlament yol hərəkəti haqqında qanuna, eləcə də İnzibati Xətalar Məcəlləsinə dəyişiklik etməli, mopedlər dövlət qeydiyyatına alınmalı və onlara nişan verilməlidir: “Bundan sonra problem özlüyündə həlli tapacaq. Bir də görürsən ki, moped sürücüsü səkidə dayanan piyadanın üzərinə çıxır. Yaxud da tıxac yarandığı üçün səki ilə gedir, piyadaya yol vermirlər. Elə hesab edirlər ki, onlar toxunulmazdırlar. Çıxış yolu nömrə məsələsini həll etmək, nömrəsiz sürənləri ağır şəkildə cəzalandırmaqdır. Nömrəsiz sürənlərin mopedlərini 3-5 ay cərimə meydançasında saxlamaq lazımdır. Aeroport yolunda hansı hoqqalardan çıxdığını görəndə dəhşətə gəlmişdim. Moped bir balaca yoldan çıxsaydı, sürücü maşınların altında qalıb əziləcəkdi. Lakin onlar belə riskləri etməyə davam edirlər”.

Daxili İşlər Nazirliyinin mövzu ilə bağlı mediaya açıqlamasında qeyd edib ki, motor həcmi 50 kubsantimetrə qədər olan nəqliyyat vasitələrinin idarə edilməsi üçün sürücülük hüququ, eləcə də onların dövlət qeydiyyatına alınması qanunvericilikdə nəzərdə tutulmayıb. Həmin nəqliyyat vasitələri ilə törədilmiş qəzaların, eləcə də qayda pozuntularının xüsusi texniki vasitələrlə aşkarlanması qeyri-mümkündür. Mühərrik həcmi kiçik olduğu üçün belə nəqliyyat vasitələri icbari sığortaya cəlb edilmir. Bu isə avtoqəza zamanı qarşı tərəf üçün problem yaradır. Məsələn, moped sürücüsü öz nəqliyyat vasitəsilə vətəndaşa və ya avtomobilə zərər vurduqda, o, mülki məsuliyyətin icbari sığortası olmadığı üçün dəymiş zərəri ödəmir. Həmçinin sürücülük vəsiqəsi və dövlət nömrə nişanı olmadığından qəza törətmiş sürücü hadisə yerindən uzaqlaşdıqdan sonra dövlət yol polisi əməkdaşları həmin şəxsi tapmaqda çətinlik çəkirlər.

Ekspertlər bildirir ki, mopedlərin idarə edilməsi zamanı sürət həddi 60 kilometri keçməməlidir. Müasir mopedlərdə mühərrik həcmi isə kiçik olsa da çox güclüdür, saatda 80-100 kilometrə qədər sürət yığa bilir. Nəticədə təyinat nöqtəsinə tez çatmaq istəyən gənclər daha sürətli idarə edir və qəzalar törədirlər.

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**



## “Tramp Bakıdan yana olacaq” - “Stratfor”dan ermənilərə “soyuq duş”

**“ABŞ-nin yeni administrasiyası keçmiş administrasiyanın fəaliyyətinə şübhə ilə yanaşır, ona görə də Prezident Donald Tramp komandası Ermənistan və Amerika arasında bu yaxınlarda imzalanmış sənəddə Vaşinqton üçün geosiyasi faydaları nəzərdən keçirəcək”.**

“Yeni Müsavat” xəbər verir ki, bunu Amerikanın “Stratfor” analitik mərkəzinin Avrasiya məsələləri üzrə analitiki Metyu Orr Ermənistan mətbuatına deyib. “Bundan başqa, yeni administrasiya İrana qarşı daha sərt mövqe nümayiş etdirir və o, Türkiyə və Azərbaycanı regionda İranı cilovlaya bilən ölkələr kimi görür. Ona görə də onların Azərbaycanla yaxşı münasibətlər saxlaması çox vacibdir. Həmçinin hesab edirəm ki, ABŞ Ermənistanla normal münasibətləri davam etdirəcək. Paşinyan Vaşinqtona əlaqələri gücləndirmək və əvvəlki administrasiya dövründə imzalanmış sənədin müddəalarına əməl olunmasını təmin etmək üçün gəlib. Düşünürəm ki, əlaqələr qorunub saxlanılacaq”, - analitik vurğulayıb. Orr Tramp administrasiyasının keçmiş administrasiyadan daha çox Cənubi Qafqaza diqqət yetirəcəyinə əmin deyil. Həmçinin onun sözlərinə görə, Vaşinqton və İrəvan arasında imzalanmış strateji saziş mümkün Ermənistan-Azərbaycan müharibəsində ABŞ-nin müdaxiləsini nəzərdə tutmur: “Yeni administrasiya keçmiş administrasiyadan daha çox həm Türkiyə, həm də Azərbaycanla münasibətləri saxlamaq istədiyi üçün onların qəti şəkildə müdaxilə etməyəcəklərini düşünürəm”.

❑ “Yeni Müsavat”



## İrəvan Bakı ilə razılaşmaq istəyir, amma... - ekspert

**İranın Ermənistandakı səfiri Mehdi Sobhaninin İrəvanda keçirdiyi mətbuat konfransında səsləndirdiyi “İran dəhliz məntiqi çərçivəsində Ermənistan ərazisindən keçən istənilən yolun əleyhinədir” açıqlaması çalışdığı ölkənin Baş naziri Nikol Paşinyana xəbərdarlıq mesajı daşıyır. Tehran görür ki, Nikol Paşinyan Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanla razılaşmanın yollarını axtarır.**

İrandakı mühafizəkar qüvvələr isə Paşinyanı durdurmaq üçün səfirlərinə İrəvanda mətbuat konfransı keçirmək təlimatı veriblər. “Yeni Müsavat” xəbər verir ki, bu sözləri politoloq Elxan Şahinoğlu qeyd edib. “Səfirin "bölgə ölkələri arasında İran yeganə ölkədir ki, Zəngəzur dəhlizi məsələsində Ermənistanın mövqeyini müdafiə edir" cümləsi isə Rusiyaya mesajdır. Məlumdur ki, Rusiya Zəngəzur dəhlizinin öz nəzarəti altında işə düşməsini istəyir. Tehran bunun da əleyhinədir. Tehran Zəngəzur dəhlizinə etiraz edərkən, dəhlizin İrandan keçməsi layihəsini dəstəkləyir. Bunu İranın Ermənistandakı səfiri də təsdiq edib. Amma erməni jurnalistlərdən heç biri ona sual verməyib ki, Ermənistandan keçən dəhlizin əleyhinə olduğunuz halda, necə olur eyni marşrutla İrandan keçən dəhlizin reallaşmasını dəstəkləyirsiz?" - politoloq bildirib.



# Okampodan daha bir həyasızlıq: “İrəvan Bakıya qarşı iddianı götürsə belə...”

## Rüşvətlə bəslənən keçmiş prokuror “ermənilərə qarşı törədilmiş cinayətlər”lə bağlı şikayətləri geri çəkməməyə çağırıb; **hüquq müdafiəçisi:** “Ermənistan bu cür ara qatanların sözlərinə uymamalıdır”

**“Ermənistan 2021-ci ilin mayından ermənilərə qarşı törədilmiş cinayətlərə (?! - red.) dair istintaqı dayandıra bilməz”. “Yeni Müsavat” yazır ki, bunu Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) keçmiş prokuroru, Azərbaycan əleyhinə şər-böhtanları ilə tanınan, erməni pulu ilə bəslənən argentinalı Luis Moreno Okampo X sosial şəbəkəsində yayımlanan video-müraciətində bildirib.**

“Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsindən şikayətləri geri çəkmək hüququ var. Lakin prokuror hələ də yurisdiksiyanın genişləndiyi 10 may 2021-ci ildən başlayaraq və geri çağırılma müddətinin bitməsindən bir il sonra cinayətlərə dair istintaq aparmaq hüququna malikdir”, - erməni yanlısı bildirib.

Onun sözlərinə görə, rəsmi İrəvan “son 3-4 il ərzində Ermənistanda və ya Dağlıq Qarabağda baş verən hadisələrə dair” istintaqı dayandıra bilməz.

Xatırladaq ki, Ermənistan 1 fevral 2024-cü il tarixində Roma Statutsunu ratifikasiya edərək BCM-in tam hüquqlu üzvü olub. Ermənistan rəhbərliyi iddia etmişdi ki, BCM-ə üzvlük İrəvana Azərbaycana qarşı “hərbi cinayətlər və təcavüz” ittihamı üzrə məhkəmədə iddia qaldırmağa imkan verəcək.

Ötən ilin dekabrda Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdi ki, Ermənistanla sülh müqaviləsi layihəsində razılaşılmayan iki maddədən biri məhz beynəlxalq məhkəmələrdə qarşılıqlı şikayətlərdən imtina ilə bağlıdır. Baş nazir Nikol Paşinyan bununla bağlı qeyd edib ki, Ermənistan Azərbaycanla qarşılıqlı beynəlxalq şikayətlərin geri çağırılmasını mümkün sayır.

Bəs Okampo niyə əl-ayağa düşüb? Onun yuxarıda dedikləri nə dərəcədə əsaslıdır? Ermənistan iddiani geri götürsə belə, BCM iddiaya baxa bilər? O halda qərar nə ola bilər? Bunu da qeyd edək ki, Azərbaycan Beynəlxalq Cinayət Məhkəməsinin üzvü deyil.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq eksperti Çingiz Qənizadə “Yeni Müsavat”a bildirdi ki, Luis Moreno Okampo deyilən “şəxsiyyət” təpədən-dırnağa qədər erməni diasporu tərəfindən maliyyələşən, özünü ermənilərə satmış bir hüquqşünasdır: “Çox təəssüfedicidir ki, belə bir şəxs vaxtilə Beynəlxalq Cinayət Məhkəməsi kimi quruma rəhbərlik edib. İndi ikitərəfli qaydada Azərbaycanla Ermənistan arasında anlaşmalar əldə olunursa, proses müsbətə doğru gedirsə, əlaqələr yavaş-yavaş qurulursa, tələblərimiz Ermənistan tərəfindən qəbul edilirsə, Ermənistanın da müəyyən istəkləri bizim tərəfimizdən müzakirə olunursa və ümumi bir nəticəyə gəlmək imkanları yaranırsa, Okampo kimi adamlar niyə narahat olur, bu maraqlıdır. Belə çıxır ki, Okampo da Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülhü istəmir, çünki belə adamlar konfrontasiya vəziyyətləri mövcud olanda erməni diasporundan daha çox maliyyə qoparda bilirlər”.

Hüquq müdafiəçisi hesab edir ki, “Ermənistan 2021-ci ilin mayından ermənilərə qarşı törədilmiş cinayətlərə dair istintaqı dayandıra bilməz” şüarı ilə çıxış etmək absurddur və bu bəyanatda həm də Azərbaycana böhtan yer alır: “Azərbaycan ermənilərə qarşı heç bir cinayət törətməyib. Bir nəfər də olsun mülki ermənini Azərbaycan öldürməyib, bir nəfər də olsun mülki ermənini Azərbaycan öz ərazisindən zorla çıxarmayıb. İkincisi, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Azərbaycan-Ermənistan münasibətlərinə qarışmaq üçün heç bir səlahiyyətə malik deyil. Ermənistan və Azərbaycan tərəfi qarşılıqlı olaraq iddialar qaldırılmaması barədə müsbət mövqelər nümayiş etdirirlərsə, bu keçmiş rüşvətxor prokurorun məsələyə qarışması ortaya suallar çıxarır. Bu cür çirkin fəaliyyətlə məşğul olan adamlar Azərbaycanla Ermənistan arasında sülh prosesinə əngəllər yaratmaq üçün ən müxtəlif yollara əl atırlar. Bu çirkin yollardan biri də Ermənistanı Azərbaycana qarşı əsassız məhkəmə iddiaları qaldırmağa, qaldırdığı iddialardan geri çəkilməməyə təşviq etməkdir. Bax, Okampo da məhz bu fəaliyyətlə məşğuldur. Belə yaramaz adamlar çalışırlar ki, Ermənistan məhkəmə iddialarından geri çəkilməsin və Azərbaycanla münasibətlər gərginləşsin”.

Ç.Qənizadənin sözlərinə görə, ancaq Ermənistan hakimiyyəti bu cür ara qatanların çağırışlarına uymamalıdır: “Məsələnin digər bir tərəfi də var. Belə ki, 2024-cü ilin 1 fevralında Ermənistan Roma statutunu ratifkasiya edərək Beynəlxalq Cinayət Məhkəməsinin tam hüquqlu üzvü olub. Amma bu, o demək deyil ki, Ermənistan qeyd olunan tarixdən öncəki məsələləri də BSM qarşısında qaldıra bilər. 30 il Azərbaycanın torpaqlarını işğal edib, 1 milyona yaxın azərbaycanlı evindən didərgin salan, onların yaşamaq, mülkiyyət hüquqlarını pozan Ermənistan həm də özünün bu cinayətlərə görə beynəlxalq məhkəmələr qarşısında cavab verməli olacağını da unutmamalıdır. Ermənistanın hüququ var ki, irəli sürdüyü məhkəmə iddialarını geri götürsün. Bu addım atılacağı halda BCM həmin iddialara baxa bilməz”. Hüquqşünas sonda onu da qeyd etdi ki, Ermənistan Azərbaycana qaldırdığı iddialardan imtina etməsə belə, bu iddiaların perspektivi yoxdur.

Xatırladaq ki, “Forbes”, “Washington Post”, “CNN” və “ABC News” kimi beynəlxalq səviyyəli media orqanları Luis Moreno Okamponu dəfələrlə tənqid edib. Okampo BCM-nin baş prokuroru olduğu dövrdə dünyanın ən məşhur vergi cənnətlərində adı hallanan şirkətləri idarə edib. BCM-dən ayrıldıqdan sonra Okampo anlaşılmaz dərəcədə böyük aktivlərə sahib idi: Onun Haaqadakı daşınmaz əmlakı (1,2 milyon avro), Argentinada beş mülkü (2,2 milyon dollar) və bankda ən azı 1 milyon dolları üzə çıxdı.

❑ Etibar SEYİDAĞA,
“Yeni Müsavat”

# İranın İrəvandakı səfirindən qızışdırıcı mövqe - Bakı və Tehrana qarşı demarş

## Ermənistanın razılıq verdiyi layihələrə qarşı çıxmaqla Tehranın diplomatı nəyə nail olmaq istəyir; **deputat:** “Burada söhbət İrandakı digər türk düşmənləri üçün heç də arzuolunmayan iki hadisəyə verilən reaksiyadan gedir”

**İranın Ermənistandakı səfiri Mehdi Sobhani növbəti dəfə “qaşınmayan yerdən qan çıxartmağa” çalışıb. Erməni mediasına açıqlamasından belə təəssürat yaranır ki, Sobhani İranın Ermənistandakı səfirindən daha çox, Ermənistanın İrəvandakı diplomatı kimi mövqe ortaya qoyub və daha çox erməni revanşistlərinin ürəyinə yatan fikirlər səsləndirib.**

Diplomat deyib ki, İran Ermənistanın ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəklədiyini bir daha təsdiqləyir. Qəribəsi budur ki, iranlı diplomat ölkəsinin ABŞ-Ermənistan strateji tərəfdaşlıq xartiyasından narahat olmadığını iddia edir. Amma nədənsə Azərbaycanın ABŞ ilə hər hansı anlaşması olan kimi Sobhani və digərləri haray-həşir salırlar ki, “qoymayın, din əldən getdi, Azərbaycan Qərb ölkələrini regiona gətirir”. Sobhaninin arqumentinə baxın: “Ermənistan hakimiyyəti bizə açıq şəkildə bildirdi ki, ABŞ və Ermənistan arasında bu yaxınlarda imzalanmış sənəd İran-Ermənistan münasibətlərinə qarşı yönəlməyib və İran-Ermənistan münasibətlərinə və İranın maraqlarına xələl gətirəcək heç bir addım atmayacaqlarını vurğulayıblar”. Amerika Ermənistana hərbi yüklər daşıyır, amerikan hərbçilər erməni hərbçilərə təlim keçir, Zəngəzurda hərbi baza planı var. Üstəlik də Avropa İttifaqının təmsilçiləri Ermənistanda daha iki il qalacaqlar. Sobhani isə arxayınçılıqla danışır, vurğulayır ki, bu, hərbi missiya deyil və Ermənistan bunu sabitliyin qorunması mexanizmi kimi təqdim edib. Həmçinin “Biz Ermənistanın xarici siyasətinin şaxələndirilməsi məsələsinə hörmətlə yanaşırıq”, - deyir. Absurddur, gülməlidir.

Təkcə bunlar da deyil. Sobhani Zəngəzur dəhlizinin də əleyhinə çıxıb. Deyib ki, İran dəhliz məntiqi çərçivəsində Ermənistan ərazisindən keçən istənilən yolun əleyhinədir. Bildirib ki, Tehran Azərbaycan tərəfinə yeni marşrut üzrə yükdaşımaları davam etdirməyi təklif edib. “Tikinti işləri başa çatdıqdan sonra Azərbaycan yük maşınları 50 km-lik marşrutla Naxçıvana çata biləcək. Azərbaycanın İrandan keçməklə Naxçıvana yolu var idi. 2020-ci il müharibəsindən sonra azərbaycanlılar həm Ermənistan sərhədinə, həm də bizim sərhədimizə yaxınlaşdılar. Yük daşınması üçün əvvəlki yol kifayət qədər uzun idi. Təklif edilib ki, azərbaycanlılar yolun böyük hissəsini öz ərazilərindən, qalan hissəsini isə İran və Ermənistan sərhədi yaxınlığından keçirsinlər”, - deyə Sobhani bildirib. O qeyd edib ki, İran ərazisindən keçən marşrut tamamilə İranın ərazi bütövlüyü və suverenliyi çərçivəsindədir. Gömrük prosedurları İran qanunvericiliyi çərçivəsində həyata keçirilir. Nəqliyyat marşrutlarının açılmasına gəlincə, İran yalnız o halda əleyhinə deyil ki, bu, ölkələrin ərazi bütövlüyü və suverenliyi çərçivəsində baş versin. “Biz Ermənistandan keçən yolların açılmasının tərəfdarıyıq, lakin bu, onun ərazi bütövlüyünə və suverenliyinə hörmətlə baş verməlidir, hansı ki, dəhliz məntiqi olsun - biz bunun əleyhinəyik, sərhədlərin dəyişməsinə, geosiyasi dəyişikliyə yol açacaq bir şeyin əleyhinəyik”, - səfir deyib.


Mehdi Sobhani

Erməni mediası xatırladıb ki, bundan əvvəl Azərbaycan prezidenti İlham Əliyev bildirib ki, Bakının Ermənistana qarşı ərazi iddiası yoxdur, lakin Ermənistan Naxçıvandan Azərbaycana maneəsiz keçidi təmin etməklə öz öhdəliklərini yerinə yetirməlidir. Azərbaycan və İran arasında münasibətlərin normallaşması halında, qarşılıqlı səfərlərin həyata keçirilməsi şəraitində səfirin radikal mövqe sərgiləməsi özfəaliyyətdir, yoxsa Tehrandan verilən işarənin məntiqi nəticəsi?

Deputat Sahib Alıyev “Yeni Müsavat”a açıqlamasında olduqca vacib məqamlara toxundu: “İranın Ermənistandakı həm də səfirinin Zəngəzur dəhlizi ilə bağlı dedikləri onun təmsil etdiyi SEPAH-ın sözügedən məsələyə yanaşmasıdır və burada yeni heç nə yoxdur. Amma Sübhaninin bizə çoxdan bəlli olan mövqelərini yenidən təkrarlaması səbəbsiz deyil, bu, reaksiya xarakterli bir açıqlamadır və əslində tam gözlənilən idi. Orasını da deyim ki, burada söhbət İrandakı digər türk düşmənləri üçün heç də arzuolunmayan iki hadisəyə verilən reaksiyadan gedir. Onlardan biri Azərbaycanla İran arasındakı gərginliyin aradan qaldırılması, qarşılıqlı faydaya dayanan əməkdaşlığı genişləndirmək üçün Azərbaycan və İran rəsmilərinin intensiv səfərləridir. Son bir ayda 3 belə səfərin baş verməsi onu göstərirdi ki, İranda Azərbaycanla düşmənçiliyin onlara yaxşı heç nə vermədiyini dərk edənlər bizimlə normal qonşuluq əlaqələri yaratmağa çalışırlar. Bunu Yaxın Şərqdəki proseslər, oradakı İran proksilərinin tam da olmasa, əhəmiyyətli dərəcədə vurulub sıradan çıxarılması, ABŞ-də fars və hay lobbisinin mövqelərinin Bayden administrasiyası dönəmindəkindən xeyli zəifləmələri də diqtə edir”.

S.Alıyevin sözlərinə görə, Tehranda rasional düşünənlər gözəl anlayırlar ki, Azərbaycanla ancaq qarşılıqlı maraqların təmininə dayanan əməkdaşlıq mümkündür: “Yeni diktə, hədə, təzyiq və sair işə yaramır, əksinə, öz əleyhlərinə işləyir və gələcəkdə bunun mənfi təsirini üzərlərində daha çox hiss edə bilərlər. İranı bu günə qoyanlar, elektrikin fasilələrlə verilməsi, inflyasiya, bütövlükdə sosial durumun acınacağlığı baxımından ötən əsrin 90-cı illərinin əvvəllərindəki Azərbaycana bənzədənlər isə bizə yanaşmada əvvəlki siyasətlərini davam etdirmək niyyətindədirlər ki, bax, bu, Mehdi Sobhani onların təmsilçisidir! İranın Ermənistandakı səfirini SEPAH-ın, daha dəqiqi, həmən SEPAH-dakı Azərbaycan düşmənlərinin Zəngəzur dəhlizi ilə bağlı moizəsini təkrarlamağa vadar edən ikinci səbəb Türkiyədə Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi üzrə işlərə start verilməsidir. Tehrandakılar yaxşı anlayırlar ki, bu layihə Zəngəzur dahlizinin tərkib hissəsdir. Və əgər bir tərəfdən Azərbaycan, digər tərəfdən Türkiyə bu dəhlizin tikintisini reallaşdırırsa, sübhanilər atılıb-düşməklə heç nə dəyişən deyil”.

Deputat Azərbaycanın bütün bu məsələlərlə bağlı dövlət siyasətinin dəyişməzliyinə də diqqət çəkdi: “Cənab Prezidentin bildirdiyi kimi, Zəngəzur dəhlizi açılmalıdır və açılacaq! İranın Ermənistandakı səfirini həm də diplomat kimi fəaliyyət göstərdiyi ölkənin iç işlərinə açıq müdaxilə xarakterli bu açıqlamasının yəqin başqa bir səbəbi də odur ki, hayların onların Qərblə əlaqələrini normallaşdıracağına, arada vasitəçi olacağına ümid edirdilər. Amma Fransanı çıxmaqla, İranla heç bir qərb ölkəsi arasında gizli əməkdaşlıq alınmadı, daha dəqiqi, sübhanilərin bununla bağlı gözləntiləri özünü tam doğrultmadı”. S.Alıyev əlavə etdi ki, Fransa ilə İran arasında dialoqun alınması heç də Ermənistanın və hay lobbisinin xidməti deyil, Tehrandakı rejimlə Yelisey sarayıdakıların bizim regiona yanaşmalarının üst-üstə düşməsidir: “Hay və fars lobbisinin birgə fəaliyyətinin, eyni zamanda İrəvandakı sorosçuların vasitəçiliklərinin ABŞ-İran əlaqələrinə əhəmiyyətli dərəcədə təsir edəcəyini, hətta Vaşinqtonla Tehranın bizim reginda sinxron çalışacaqlarını düşünənlər yəqin Prezident Trampın rejimlə bağlı son açıqlamasından xəbərdardılar və İsrail baş naziri Netanyahu ilə görüşərkən onun altına özünün kreslo çəkib əyləşdirməsinin nə anlam daşıdığını, İrana nə vəd etdiyini yəqin bilməmiş deyillər. Yaxşı olardı ki, Sobhani Zəngəzur dəhlizindən yox, bundan danışardı”.

Siyasi ekspert Məhəmməd Əsədullazadə isə bildirdi ki, Tehran rejimi Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqları və Zəngəzur dəhlizinin açılmasının əleyhinədir: “Nikol Paşinyan özü də Zəngəzur dəhlizindən maneəsiz gediş-gəlişə razı olduğunu və paralel olaraq Arazdəyəndən Mehri yə Naxçıvandan keçmək şərtini irəli sürdü. Göründüyü kimi, Paşinyan dəhlizin açılmasına prinsipcə razılaşıb. Bu dəhlizin Ermənistanın yuridiksiyasında olacağına şübhə yoxdur. Cənab prezident İlham Əliyev də Ermənistana ərazi iddialarının olmadığını vurğulayıb. İran Ermənistan üzərindən yüklərin daşınmasına qarşıdır. Bu çıxış Tehranın mövqeyidir və Ermənistanın əleyhinədir. Rəsmi İrəvan buna etiraz etməlidir. Nikol Paşinyan deyir ”dəhlizi açırıq", Tehran rejimi deyir “olmaz”. Artıq bu, Ermənistan - İran problemidir. İran yüklərin öz ərazisindən keçməsində maraqlıdır. Nəqliyyat dəhlizinin öz nəzarətində olmasına çalışır. Növbəti mərhələdə regionda təsir rıçaqlarını əlində saxlamağı hədəfləyir". M.Əsədullazadə şübhə etmir ki, buna nə Azərbaycan, nə Türkiyə nə də Ermənistan razı olmayacaq: “Azərbaycan İranla münasibətləri normallaşdırmağa çalışır. Göründüyü kimi, mühafizəkar dairə yenidən anti-Azərbaycan siyasətini davam etdirir. Prezidentin köməkçisi cənab Hikmət Hacıyev İrana getdi, danışıqlar apardı. Amma Tehran rejimi öz ambisiyalarından geri çəkilmir. Proseslər İranın əleyhinə işləyir. Azərbaycan İran ərazisindən də paralel yüklər daşıyacaq. Amma tam İranın nəzarətində olan yoldan istifadə etmək Azərbaycanın milli və təhlükəsizlik maraqlarına ziddir”. Ekspertin fikrincə, Tehran rejimi M. Sobhaninin dili ilə Zəngəzur dəhlizinə qarşı olduğunu növbəti dəfə bəyan etdi: “İran bununla Ermənistanı növbəti dəfə blokadada saxlamaq istəyir və regional layihələrdən kənar qoyur. Nikol Paşinyan Tehrana etiraz etməlidir. Tehran rejimi görür ki, Azərbaycan və Ermənistan dəhliz məsələsində razılığa yaxındır. Düşünürəm ki, İranın bu siyasəti də fiaskoya uğrayacaq. Necə ki, Suriyada və Yaxın Şərqdə öz geosiyasi mövqelərini itirib. Regional layihələrdən də kənar qalacaq. Tehran-Azərbaycan əlaqələri yenidən qarşı tərəfin qeyri-konstruktiv siyasətinə görə böhrana yuvarlanır. İran geosiyasi nizamın dəyişməsini qəbul etmək istəmir. Amma şərtlər onun bu reallıqla barışmasına təkan verəcək. Tehranla aparılan danışıqlar və əldə olunan razılaşmalar suya yazılan yazı kimidir. İran Zəngəzur dəhlizinə qarşı çıxmaqla Çinin geoiqtisadi maraqlarını təhdid edir”.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025



# İstər-istəməz köşə

Zamin HACI
zaminhaci@gmail.com

**Əmək və əhalinin sosial müdafiəsi nazirinin maliyyə naziri qoyulması hökumətin iqtisadi-sosial siyasətinə uyğundur. Nəyə görə? Çünki nazir əslində özünü yaxşı maliyyəçi kimi göstərmişdi - xeyli sayda saxta əlillik dərəcəsi alanlar məhz onun nazir olduğu dönəmdə büdcə himayəsindən çıxarıldı. O cümlədən, saxta pensiyaçıların, saxta ünvanlı yardım alanların da sayı-hesabı itmişdi, bunları ləğv etdi. Bu cinayətlərə görə "sobes" müdirlərinin həbsi də saysız-hesabsız oldu.**

Yəni, burda bizim bəyənib-bəyənməməyimiz heç nəyi həll etmir, əsas odur məmur onun qarşısına qoyulan vəzifənin öhdəsindən gəlib və rəhbərlik etdiyi sahədə böyük narazılıqlar müşahidə olunmayıb. Artıq nazirlik önündə qazilərin təkəmseyrək aksiyalarına da rast gəlinmirdi. Hamı istər-istəməz razıdır. Deməli dövlət büdcəsi vəsaitlərinə yüksək səviyyədə qənaət etməyi bacaran adamın yeri məhz maliyyə olmalıydı.

Hərçənd, indiki dünyada bəzən radikal addımlar da lazım gəlir. Bugünlərdə futbol idarəmizdə aparılan kadr dəyişikliyi bunun nümunəsidir. Orda rəhbərliyə gətirilən bir yoldaşın tərcümeyi-halını vermişdilər və son 14 ildə 10 iş yeri dəyişdiyini yazmışdılar. İlk baxışdan "bütün idarələri batırıb, çıxıb" qənaəti yaranır, lakin "sürətli islahatlara görə hamı onu öz komandasında görmək istəyib" demək də olmazmı?

Hardan baxmağın nəticəyə, görüntüyə təsiri çoxdur. Buna həyatda illüziya deyirlər. Elə olur səhrada gedirsən, gözünə su dolu çaylar dəyir. Yaxud, baxırsan bağ-bağatlı, uca minarəli bir şəhər var, yaxına gedirsən, yoxa çıxır. İndi bu qənaətə gəlmək olarmı çay və şəhər yoxdur? Var. Sadəcə, sən baxdığın yerdə deyil. Atmosferdə istilik, su buxarı və sairənin təsirindən yaranan bu görüntünün ən primitiv formasını hamımız yay aylarında müşahidə eləmişik: asfalt yolda maşınla gedərkən sənə elə gəlir qabaqda yolu su basıb.

Halbuki, su yolu niyə bassın? Yiyəsizlikdir bəyəm? Su əhaliyə verilir, yolda da maşınlar gedir. Bunlar hamısı riyazi, dəqiq formullarla baş verir.

Bəs bu ilğım hardan ağlıma gəldi? Bugünlərdə Fransa Ukraynaya "Miraj" hərbi təyyarələri verdi. Miraj - elə həmin ilğım sözünün fransızcasıdır. Sovet vaxtı bu adda yaxşı triller, kriminal film vardı. Hansısa kapitalist ölkəsində bankı soyurdular, lakin pulları ələ keçirə bilmir, hamısı ölürdü. Son səhnədə quldurların birini öskürək tutur, bu yolla ələ keçirdilər. Bir də kimisə ilan çalırdı. Gərək təzədən baxım, nəsə maraqlı film idi. SSRİ-də belə maraqlı kinolar çox az olurdu. Əsasən əmək qəhrəmanları haqda gopçu filmlərə baxırdıq. Kimsə min litr süd sağdı, nə bilim, min ton pambıq yığdı... İnkişafın qədrini bilin. O vaxt heç Tik-tok da yox idi.

Sözgəlişi, təzəlikcə belə xəbər oxudum, sayın mədəniyyət nazirimiz keçən il çəkilən 26 filmə dövlət dəstəyi verildiyini söyləmişdi. Böyük rəqəmdir. Heç Oskar yarışına o qədər kino çıxmır, yalan olmasın. Bəs həmin filmlərimiz hansılardır, qalır onu tapmaq. Statistika var, lakin kino yoxdur.

Bəzən də kino xalqa ziyan vurur. Misal çəkim. Keçən ilin axırları İTV-də "Vətəndaş A" serialı çıxmışdı. Orda bələdiyyə sədri elə yaramaz, bandit, axmaq adam kimi təsvir edilmişdi ki, nəticədə yanvarda bələdiyyə seçkisində vətəndaş aktivliyi güc-bəla 30 faizə çatdı. Xalq istər-istəməz düşünmüşdü: "Belə bələdiyyəni niyə seçməliyik?". Yəni, sənət işlərində diqqətli olmalıyıq. İstər-istəməz.

İstər-istəməz bu yazının da sonu çatdı.



# Moskva Bakı ilə gərginliyi körükləyir - Kreml dayanmasa...

## Azərbaycan-Rusiya münasibətlərində soyuq rüzgarlar getdikcə güclənir; Kreml tezliklə "daşları yığmasa", təyyarənin vurulması faktları beynəlxalq məhkəməyə təqdim olunacaq

**Azərbaycan-Rusiya münasibətlərində soyuq rüzgarlar getdikcə güclənməkdədir. Səbəb sərnişin təyyarəmizi raketlə vuran Rusiya dövlətinin məsuliyyəti üstündən atması, özünü israrla təmizə çıxarmağa çalışması, üstəlik, bu ölkənin media məkanında ölkəmizə qarşı qərəzli və böhtan kampaniyasını davam etdirməsidir.**

Məlumdur ki, belə ədalətsiz mövqenin dəyişməyəcəyi təqdirdə rəsmi Bakı təyyarə ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət ünvanlayacağı haqda xəbərdarlıq edib. Bundan əlavə, paytaxtımızda hüquqi qeydiyyatı olmadan fəaliyyət göstərən, bədniyyətli işlərlə məşğul olan "Rus Evi"nin bağlanması ilə bağlı Azərbaycan XİN-i qarşı tərəfə nota təqdim edib. Vəziyyəti qaydaya salmaq üçün bir ay yarım vaxt verilib.

Notaya cavab olaraq, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib ki, Moskva Bakıda qeydiyyat məsələsini həll etməyə hazırdır. "Rusiya Bakıdakı Rus Mədəniyyət Mərkəzi ilə bağlı vəziyyətin sağlam şəkildə həll olunacağını gözləyir", - Zaxarova bildirib. Bəs Moskva təyyarə faciəsi ilə bağlı həqiqətləri etiraf etməyə necə, hazırdırmı? Ümumiyyətlə, Rusiya Güney Qafqazda yeganə etibarlı tərəfdaşının haqlı tələbindən niyə qaçır? İkitərəfli münasibətlərdə gərginlik daha nə qədər və hara kimi sürə bilər? Rusiya atdığı "daşları" nə vaxt yığmağa başlayacaq?

Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiya vaxtında törətdiyi cinayəti boynuna alaraq zərər çəkənlərə təzminat ödəmiş olsaydı, hadisələr bu yerə gəlib çıxmazdı. Politoloqun fikrincə, gərginliyin yüksəlməsinə səbəb Moskvanın mövqeyinin dəyişməməsi və məsuliyyəti Milli Qəhrəmanlar olan pilotların üzərinə qoymasıdır: "Rosaviasiya"nın axırıncı bəyanatı ağ eləmək idi. Rusiya utanmaz şəkildə öz cinayətini ekipaj üzvlərinin üzərinə yıxır. Burada əsas narazılıq özünü bizə dost sayan Rusiyanın hələ də məsələni uzatmasıdır. Əgər bu davranış Makron Fransasından, yaxud İran rejimindən gəlsəydi başadüşülən idi. Sözsüz ki, Putin Rusiyası da onlardan fərqlənmir, əksinə, Ukraynada onminlərlə günahsız insanın qətlinə fərman verib, amma Moskva Bakını strateji müttəfiqi hesab edirsə, belə rəftar etməməli idi".

Q.Hüseynlidə artıq inam yaranır ki, təkcə təyyarənin vurulması faktı deyil, Azərbaycanın Ukrayna və Suriya məsələlərindəki mövqeyi də Kremli narahat etdiyi üçün belə bir soyuqluq müşahidə olunur: "Azərbaycanın Türkiyə ilə yaxınlaşması, müstəqil addımları, Prezidentin beynəlxalq hüquqa söykənən prinsipial mövqeyi Rusiyanı görünür ki, çox da qane etmir. Moskva sözəbaxan Azərbaycan görmək istəyir, amma heç vaxt görməyəcək. Artıq Rusiya 2022-ci ildəki deyil".

Bununla yanaşı, professor münasibətlərin müəyyən mərhələdə yenidən düzələcəyinə əmindir: "Təbii ki, şimal qonşumuzla uzunmüddətli gərgin şəraitdə davam etmək istəmirik. Ancaq addım atan tərəf Kreml olmalıdır. Biz nə istəyirik? Təyyarəmizi vuranlar həbs edilsin və 38 ailənin kompensasiyası verilsin. Axı bundan əlavə tələbimiz yoxdur. Necə ki İran da səfirliyimizi terror edən şəxslə bağlı ilk vaxtlar başqa ssenarilər ortaya atmışdı, onu dəli çıxarmaq istəyirdilər, lakin cənab prezidentin qətiyyətli mövqeyindən çəkilmədiyini qəbul etdilər və həmin terrorçu edam ediləcək. Ona görə də Azərbaycan səfirliyin fəaliyyətini bərpa etdi. İndi Rusiya da təyyarəmizi vuran cinayətkarları və atəş əmri verənləri məsuliyyətə cəlb etsin, ondan sonra bu mövzu bağlanacaq. Eyni zamanda, "Rus evi" ilə bağlı tələb edilən qaydalara əməl edilməlidir. Zaxarova da təsdiqlədi ki, qeydiyyat üçün addımlar atılacaq. Və təkcə bu mərkəz deyil, USAİD də Bakıda bağlandı. Yeni Rusiya hesab etməməlidir ki, Azərbaycan demarş edir, yaxud təyyarə hadisəsinin cavabını "Rus Evi" ilə verir. Qətiyyən, o zaman USAİD də bağlanmazdı. Bunlar bir-birindən ayrı mövzulardır".

Politoloq Qazaxıstanın ilkin hesabatından sonra Rusiyanın reaksiyasını biabırçılıq sayır və hesab edir ki, beynəlxalq istintaq komissiyası qurulması mümkündür: "Azərbaycan istəmədi ki, məsələ beynəlxalq səviyyədə araşdırılsın. Biz hesab etdi ki, üç tərəf istintaq başladıb və regional səviyyədə həllini tapacaq. Lakin Rusiyanın davranışı bizi beynəlxalq komissiya yaradılması üçün təşəbbüs qaldırmağa məcbur edir. Yeri gəlmişkən, Böyük Britaniya bu istiqamətdə dəstək olacağını əvvəlcədən elan edib. Odur ki, Rusiya özü ölçüb-biçib nəticə çıxarmalıdır və Azərbaycanı itirmək istəmirsə, gözlədiyimiz münasibəti sərgiləməlidir".

Deputat Razi Nurullayev hesab edir ki, Rusiya-Azərbaycan münasibətlərinin kəskinləşməsinin səbəbkarı qarşı tərəfdir. Onun sözlərinə görə, Rusiya təyyarənin vurulması ilə bağlı indiyə qədər hələ də konkret rəy bildirməyib və bu da onun özünü hegemon saymasından irəli gəlir: "O təyyarədə 300 nəfər də ola bilərdi. Ona görə bu hadisə bağışlanası məsələ deyil. İran Ukrayna təyyarəsini vurdu, amma sonra üzr istədi. Rusiya isə bunu etmir və Azərbaycana yuxarıdan aşağı baxmaq yanaşması qəbuledilməzdir. Üstəlik, Rusiya ölkəmizdə stabilliyin pozulması ilə bağlı bəzi addımlar atmaq niyyətində görünür. O baxımdan, "Rus Evi"nin bağlanması bir işarədir. Yəni gizli görüşlər keçirilməsi, etnik zəmində hansısa addımlar atılması və s. Azərbaycan sabit, milli birliyi olan ölkədir. Ancaq bu milli birliyi pozmaq cəhdləri var".

R.Nurullayev xatırladır ki, Rusiya həmişə qonşu ölkələrdə münaqişə ocaqları yaradır, sonra uzun illər bunun həlli ilə məşğul olur: "Sadəcə, həmin metodlar köhnədir və Azərbaycan buna getməyəcək. Onu da deməliyəm ki, Azərbaycan Rusiya ilə münasibətlərin pisləşməsinin də tərəfdarı deyil. İki ölkə arasında imzalanmış Moskva bəyannaməsinə əsasən, biz götürülən öhdəliklərə riayət edirik. Amma təyyarənin vurulmasından sonra Rusiyanın tutduğu mövqe, xüsusən rus mətbuatının bizə qarşı əsassız materialları münasibətləri kəskinləşdirib. Biz istəməzdik ki, məsələ məhkəmə səviyyəsinə qalxsın. Hələ də ümid edirik ki, qonşu dövlət Azərbaycanın tələblərini yerinə yetirəcək, kompensasiya ödəyəcək".

Siyasi ekspert İlyas Hüseynov isə bildirir ki, Azərbaycanın haqlı tələbləri yerinə yetirilməzsə, faktlar beynəlxalq məhkəməyə təqdim olunacaq: "Bu, Azərbaycanın suveren hüquqdur və ölkə beynəlxalq münasibətlər sistemində müstəqil siyasətini davam etdirəcək. Azərbaycanın haqlı tələblərinə vaxtında və müfəssəl şəkildə cavab verilməsi məsələnin beynəlxalq məhkəmə instansiyalarına çıxarılmasının qarşısını almaq baxımından məqsədəuyğun hesab edilir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025



# ABŞ-nin anti-Azərbaycan nəşrlərinə zərbə - Bakıdan reaksiya

## Bu media quruluşlarında zaman-zaman ölkəmizə qarşı şantaj dolu kampaniyalar həyata keçirilib; "Azadlıq" Radiosu və "Amerikanın səsi"nin də pulu kəsilə bilər

**ABŞ Hökumətinin Effektivliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask hökumətin Amerikanın "Politico", "The New York Times" və "Associated Press" nəşrlərini artıq maliyyələşdirməyəcəyini açıqlayıb. "Bu, açıq-aşkar vergi ödəyicilərinin pullarının israfıdır!", - Mask bildirib.**

Ağ Evin mətbuat katibi Karoline Leavitt isə deyib ki, ABŞ hökuməti "Politico"ya illik təxminən 8 milyon dollarlıq abunəni ləğv edəcək. O, "Politico"nun Amerika vergi ödəyiciləri tərəfindən effektiv şəkildə subsidiya edildiyini və DOGE komandasının artıq qəzetə ödənişləri ləğv etmək üçün işə başladığını qeyd edib.

Maskın departamenti həmçinin ABŞ-nin digər media orqanlarına abunə üçün federal xərclərin auditinə başlayıb. Bundan əvvəl o, medianın dövlət vəsaiti hesabına maliyyələşdirilməsi praktikasına qarşı kəskin çıxış etmişdi.

Prezident D.Tramp isə deyib ki, "Politico" Demokratlar Partiyasının xeyrinə olan məqalələr müqabilində USAID-dən 8 milyon dollar alıb. O, başqa hansı KİV-lərin hökumətdən maliyyələşə biləcəyi ilə maraqlanıb və söz verib ki, demokratların "qaça bilməyəcəyi ən böyük qalmaqal" başlayacaq.

Yada salaq, bu həmin KİV-lərdir ki, Co Baydenin hakimiyyəti dövründə Azərbaycan əleyhinə onlarla sifarişli materialları dərc etmişdilər. Bəs maliyyələşmənin dayandırılması həmin KİV-lərin mövcudluğuna necə təsir edə bilər? Eyni aqibət "Azadlıq" və "Amerikanın səsi" radiolarını da gözləyə bilərmi?

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, "Politico", "The New York Times", "Associated Press" kimi nəşrlərə maliyyələşmənin dayandırılması Tramp hakimiyyətinin indiyə qədər müxtəlif istiqamətlərdə maliyyələşmənin dayandırılması haqqında qəbul etdiyi qərarların davamıdır. Prosseslərə biznes adamı düşüncəsi ilə yanaşan Tramp üçün maliyyə vəsaitlərinin necə gəldi və hara gəldi xərclənməsi məqbul deyil və o öz qərarları ilə artıq maliyyə yükündən qurtulmağa çalışır: "Ayrı-ayrı xarici ölkələrə və təşkilatlara 90 gün ərzində maliyyənin dayandırılması, Beynəlxalq İnkişaf Agentliyinin fəaliyyəti ilə bağlı araşdırmalara başlanılması da bunun sübutudur.

İkinci səbəb isə siyasi səbəblərlə bağlıdır. Məlumdur ki, ABŞ-da ayrı-ayrı təşkilatlar dövlət tərəfindən maliyyələşsə də onların indiyə qədər olan fəaliyyəti Demokratların mövqelərinin möhkəmləndirilməsindən ibarət olub.

Eyni şəkildə adı çəkilən nəşrlər də fəaliyyətləri dövründə, hətta Respublikaçıların hakimiyyətdə olduğu vaxtlarda belə daha çox demokratlara yaxınlıqları ilə seçiliblər. Yəni başqa sözlə indi Tramp adminstrasiyasının qərarları "bir güllə ilə iki dovşan vurmağa" hesablanıb. Bir tərəfdən İlon Maskın dediyi kimi vergi ödəyicilərinin pullarının israfının qarşısı alınır, digər tərəfdən isə seçki dövründə anti-Tramp mövqeyi ilə seçilən təbliğat qurumlarına zərbə vurulur".

Ekspert xatırlatdı ki, bu nəşrlər Azərbaycan oxucusu üçün də kifayət qədər məlum olan nəşrlərdir. Çünki istər İkinci Qarabağ savaşı dönəmində, istərsə də ondan sonrakı dövrdə bu mətbu orqanlarında Azərbaycan əleyhinə çoxsaylı yazılara şahidlik etmişik. Maliyyələşmənin dayandırılması təbii ki, nəşrlərin fəaliyyətinə ciddi təsir edəcək. Ona görə ki, bu nəşrlər faktiki olaraq qeyri-kommersiya qurumu kimi fəaliyyət göstərib: "Məsələn, "Politico" siyasi jurnalistika üzrə ixtisaslaşmış Amerika media təşkilatıdır. Qəzet 40 minə yaxın tirajla nəşr olunurdu və Vaşinqtonda pulsuz paylanırdı. Təbii ki, dövlət maliyyələşməsi yoxdursa indi pulsuz yayımdan da söhbət gedə bilməz. Yəni bu nəşrlər fəaliyyətlərini davam etdirmək istəyirlərsə artıq yeni maliyyə mənbələri tapmaq məcburiyyətində qalacaqlar.

Təbii ki, bu, ayrı-ayrı nəşrlərə və KİV-ə maliyyəşmənin dayandırılması ilə bağlı son qərar olmayacaq. Maskın departamenti artıq ABŞ-nin digər media orqanlarına abunə üçün federal xərclərin auditinə başlayıb. Nə dərəcədə düzgün və ya yanlış mövqe olmasından asılı olmayaraq İlon Mask da biznesmen təfəkkürü ilə hərəkət edərək ümumiyyətlə medianın dövlət vəsaiti hesabına maliyyələşdirilməsi praktikasına son qoyulmasının tərəfdarıdır. Amma düşünürəm ki, Tramp adminstrasiyası bütün medianın maliyyəşməsindən imtina ilə bağlı addım atmayacaq. Çünki bu, media orqanlarında anti-Tramp kampaniyasına start verə bilər. Odur ki, indiki mərhələdə oxşar qərarların "Azadlıq radiosu" və "Amerikanın səsi" ilə bağlı atılacağını da düşünmürəm".

Y.Bağırzadə belə əsaslandırdı ki, haqqında danışılan media qrurumları əsasən xaricdəki auditoriyaya fokuslanan media qurumlarıdır. "Azadlıq Radiosu" Şərqi Avropa, Mərkəzi Asiya, Qafqaz və Yaxın Şərq ölkələrində xəbərlər, məlumatlar və təhlillər yayımlayan və hesabat verən media təşkilatı, "Amerikanın səsi" isə ABŞ hökumətinin xarici auditoriya üçün nəzərdə tutulmuş xəbər yayımlama təşkilatıdır. Onların maliyyələşdirilməsinin dayandırılacağı ehtimalı gözlənilən deyil.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov isə bildirdi ki, ABŞ hazırkı dönəmdə xərclərin təftişini həyata keçirmək, effektivliyi artırmaq və ABŞ hökumətinin xərclərini tənzimləmək üçün müvafiq addımlar atır. Amma burada bir siyasi məqəsdlər də var. Şübhəsiz ki, bu siyasi məqsədlər olmasaydı İlon Mask və Donald Tramp son baş verən proseslərdə qabaqcıl mövqe tutmaz, "Politico", "The New York Times", "Associated Press" kimi nəşrlərin tənqidini sürətləndirməzdi. Bundan öncə USAİD-ə qarşı analoji addımlar atılırdı: "Bütün sadaladığım media orqanları və institutlar ABŞ maraqlarının geniş təbliğatı, yayılması istiqamətində əsasən fəaliyyət göstərirlər. Amma rıçaqlar birbaşa olaraq Demokratlar dövründə daha da işə düşür və "demokratiya" inqilabları, üsyanları hazırlanır. Milyardlarla vəsaitlər xərclənir. Məhz bu prosesin özündən elə Tramp özü əziyyət çəkmişdi. Çünki Trampın sosial şəbəkə platforması bağlandı, müxtəlif media orqanları açıq şəkildə Demokratların tərəfini tutdu, Trampa qarşı çoxsaylı məhkəmə işləri, iddialar qaldırıldı, qarayaxma kampaniyaları həyata keçirildi. Bu gün isə sanki Trampın əlinə intiqam zamanı fürsəti keçib. Həmin media quruluşlarının maliyyə vəsaitlərindən məhrum edilməsi Azərbaycanda da diqqətlə izlənilir. Çünki həmin media quruluşlarında zaman-zaman Azərbaycan əleyhinə də kampaniyalar həyata keçirilib. Hesab edirəm ki, "Azadlıq" Radiosu və "Amerikanın səsi"nin də maliyyəsinin kəsilməsi və bağlanmasına şahidlik edəcəyik".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# İsrail nəşri: "İranın "ümidi" Ermənistandır"



**"Regionda gücü zəifləyən İran Ermənistanı geosiyasi problemlərindən çıxış yolu kimi görür. Əgər Tehran Ermənistanla hərbi saziş imzalayıb bu ölkəyə qüvvələr göndərərsə, bir neçə məqsədinə nail olacaq".**

Bu barədə İsrailin tanınmış eksperti Mordexay Kedar "Yerusəlim Post"da dərc olunmuş "İranın şiə ayparası laxlayır: 7 oktyabrdan sonra regional güc nisbəti necə dəyişir" adlı məqaləsində yazıb (Axar.az).

Qeyd olunub ki, İran Ermənistan vasitəsilə Rusiya ilə qaçaqmalçılıq əməliyyatlarını davam etdirmək niyyətindədir. Ermənistanın Avropaya yaxınlığı belə bir vəziyyətdə strateji və geosiyasi baxımdan üstünlükdür. Habelə, İran Ermənistanda hərbi mövcudluq yaratmaqla Azərbaycanla münasibətlərdə təsir imkanları əldə edə bilər.

İslam Respublikasının Ermənistan və Cənubi Qafqaz vasitəsilə regional gücünü bərpa etməyə çalışdığını, İran İnqilabı Keşikçiləri Korpusunun müxtəlif səylər göstərdiyini yazan müəllif İslam dünyasında dominantlığa can atan Tehranın onilliklər üçün planlar qurduğunu bildirib.

Məqalədə həmçinin Ermənistanın tərəfdaşlıq münasibətində İrana loyallığını vaxtaşırı dilə gətirməsinə baxmayaraq, NATO tədricən Ermənistanı Qərbə doğru çəkməyə başladığı yazılıb. NATO hərbi personalının Ermənistanda fəallığı, ABŞ qüvvələri ilə birgə təlimlərin keçirildiyi, İranla sərhəddə ABŞ hərbçilərinin yerləşdirildiyi diqqətə çatdırılıb. ABŞ ordusunun Ermənistan hərbi bazalarında fəaliyyət göstərdiyi və İran ərazisindən buraxılan raket və PUA-ları izlədiyi qeyd olunub.

İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədiyanın Ermənistana gedərək ölkə rəhbərliyi ilə görüşdüyü və baş verənlərə görə ölkəsinin narazılığını bildirdiyi vurğulanıb. İran Ermənistandan Avropa İttifaqı və NATO-ya üzvlük cəhdlərindən əl çəkməsini, habelə Qərb qüvvələrini öz ərazisindən çıxarmasını tələb edib. İran rəsmisi bildirib ki, İrəvan tələblərlə razılaşarsa, iki ölkə hərbi saziş imzalayacaq, Qərb qüvvələri Ermənistandan çıxacaq və İran maneəsiz fəaliyyət göstərmək üçün öz qoşunlarını bu əraziyə yeridəcək.

# Böyrək həsrətində olanlara şad xəbər - Orqan donorluğunda inqilab

## Professor: “İnsanlardan yetərincə orqan götürə bilmiriksə, problemi tam həll edə bilməyəcəyik”

**ABŞ geni dəyişdirilmiş donuzların böyrəklərinin insanlara köçürülməsi üçün sınaqların təsdiqləyib. Bu barədə “The Washington Post (WP)” xəbər yayıb. Nəşrin məlumatına görə, Qida və Dərman İdarəsi iki şirkətə - United Therapeutics və eGenesis-ə klinik sınaqların aparılmasına icazə verib. Tədqiqat son mərhələdə böyrək çatışmazlığı olan altı xəstəni əhatə edəcək. Gələcəkdə iştirakçıların sayının 50-yə çatdırılması planlaşdırılır.**

“United Therapeutics”in ilk əməliyyatının 2025-ci ilin ortalarında baş tutacağı gözlənilir. Qeyd olunur ki, eGenesis şirkəti tərəfindən daha üç böyrək köçürüləcək. Məlumdur ki, Azərbaycanda da böyrək transplantasiyası üçün növbə gözləyən xəstələr var. Bəs belə sınaqlar nə dərəcədə effektli ola bilər?

Qeyd etmək yerinə düşər ki, ekspertlərə görə, geni dəyişdirilmiş donuz böyrəklərinin insan bədəninə uyğunlaşdırılması üçün müəyyən genetik dəyişikliklər edilir. Amma insan orqanizminin bu orqanları necə qəbul edəcəyi hələ də tam aydın deyil. Əvvəlki təcrübələrdə orqanlar bir neçə həftə və ya ay içində bədən tərəfindən rədd edilib. Misal üçün, ötən il ABŞ-nin Boston şəhərindəki Massaçusets Xəstəxanasından bildiriblər ki, ilin əvvəlində geni dəyişdirilmiş donuzdan yeni böyrək transplantasiyası əməliyyatı keçirən ilk insan böyrək çatışmazlığından vəfat edib. Xəstəxanadan verilən açıqlamada qeyd olunub: “Kütləvi transplantasiya qrupu donuz böyrəyi köçürülməsi əməliyyatının nəticəsini araşdırır”. Hazırda bu əməliyyatlar qısa müddətlik effektləri yoxlamaq üçün aparılır. Əgər xəstələrdə böyrəklər stabil işləsə, daha genişmiqyaslı sınaqlara keçid edilə bilər. Bununla belə, bəzi cəmiyyətlərdə heyvan orqanlarının insanlara köçürülməsi etik və dini baxımdan suallar yaradır. Bunun Azərbaycanda qəbul olunması da müzakirə mövzusu ola bilər.

Məlumat üçün bildirək ki, Azərbaycanda orqan transplantasiyası faktı ilk dəfə akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 1971-ci il martın 4-də nəinki Azərbaycanda, Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə xəstəyə böyrək köçürülüb. Sonradan bu nailiyyətə görə o, 1974-cü ildə SSRİ dövlət mükafatına layiq görülüb. Mərhum akademikin rəhbərliyi ilə 1983-cü ilə kimi Azərbaycanda 30-a yaxın böyrəkköçürmə əməliyyatı aparılıb. Sonradan bu iş dayandırılıb. Sovet hakimiyyətinin dağılması ərəfəsində yaranan durğunluq, tibbi avadanlıqların köhnəlməsi, işin risklilik dərəcəsinə görə onlar transplantasiya ilə məşğul olmamışlar.



Cərrah-həkim, professor Adil Qeybulla mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bölüşüb: “Ümumiyyətlə, orqan nəqli üçün allotransplantlardan istifadə ideyası xeyli əvvələ gedib çıxır. Təcrübələr göstərir ki, müəyyən adaptasiya mexanizmlərinin təmin edilməsi, immun sistemin uyğunlaşdırılması yolu ilə heyvanlardan orqan köçürülməsi də real ola bilər. Bu baxımdan donuzlardan orqan köçürülməsi məsələsi uzun müddətdir müzakirə edilir və eksperimentlərdə bununla bağlı uğurlu nəticələr əldə olunur. Təbii ki, bunun klinikaya tətbiqi donor mənbəyinin artırılması baxımından çox mühüm addımdır. Hesab edirəm ki, ürək, ağciyər və s. kimi orqanlar çox nadir orqanların, hətta beyin ölümü keçirmiş insanların belə, onun daha sağlam formasını tapmaq həmişə mümkün olmur. Belə orqanların mənbəyi heyvanlar ola bilər. Bu baxımdan, donor mənbəyi kimi növbədə dayanmış xeyli insan problemini həll etmək mümkün olacaq”.

O ki qaldı Azərbaycanda orqan nəqli məsələsinə, həkim əlavə edib ki, ölkəmizdə “Orqan nəqli haqqında” qanun layihəsi müzakirə edilib: “Amma donor mənbəyi və donor bankı məsələsi hələ də sual olaraq qalır. Ən böyük problem insanlardan orqanın götürülməsidir. Yeni donor mənbəyi kimi əsasən beyin ölümü keçirmiş, praktik olaraq sağlam insanların yarılmasına, orqanın götürülməsinə cəmiyyət hələlik razılıq vermir. Təəssüflər olsun. Nə qədər ki insanlarımız buna psixoloji olaraq hazır deyil, o qədər də biz bu sahədə problem yaşayacağıq. Yəni insanlardan yetərincə orqan götürə bilmiriksə, donor məsələsini və donor mənbəyi problemini tam həll edə bilməyəcəyik. Ona görə də hesab edirəm ki, bu məsələ həll edildikdən sonra artıq heyvanlardan da orqan mənbəyi kimi istifadə edilməsinə keçmək olar. Hesab edirəm ki, bizdə problem xarici ölkələrlə müqayisədə daha dərindədir. Amma istənilən halda, kliniki təcrübələr göstərir ki, artıq aparılmış eksperimentlər uğurla sınaqdan keçib və bunlar orqan mənbəyi istiqamətində yeni üfüqlər açır. Dünyada yaxın zamanlarda bu məsələnin geniş yayılması üçün şərait yaradacaq. Çünki əgər donuzlar orqan mənbəyi kimi çıxış etsə, onları xüsusi yerlərdə saxlayacaqlar və lazım olan insanlara orqan köçürülməsi təmin ediləcək. Bundan başqa, hal-hazırda yeni-yeni preparatların, xüsusilə immun sisteminə müdaxilə edən və onu tənzimləyə bilən preparatların da meydana gəlməsi bu işin həyata keçirilməsinə kömək edəcək”.

**❑ Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Dietoloqdan xəbərdarlıq - arıqladan həblər, “möcüzəvi” çaylar...

## Ölkəyə “arıqlama çayı və qəhvələri” adı altında müxtəlif markalı məhsullar gəlir, həkim diqqətli olmağa çağırır

**“Son dövrlər elektron ticarət yolu ilə kütləvi formada ”arıqlama çayı və qəhvələri" adı altında müxtəlif markalı qəhvə və çayların Azərbaycan Respublikasına gətirilməsi artmaqdadır. Həmin mallar ilə əlaqədar gömrük orqanlarında aparılan araşdırmalar nəticəsində qeyd olunan qəhvə və çayların tərkibində bir sıra hallarda güclü təsirə malik maddə hesab edilən “sibutramin” maddəsinin olduğu aşkar edilib". Bu barədə Səhiyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi birgə məlumat yayıb.**



Bildirilib ki, sibutramin maddəsi 18 mart 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş “Güclü təsir edən maddələrin və onların külli miqdarının siyahısı”na daxildir və bu tərkibdə malların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə, yaxud bəyan və ya düzgün bəyan etməməklə keçirilməsi Cinayət Məcəlləsinin 206-cı maddəsi, buna əsaslar olduqda həmin Məcəllənin 240-cı maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Sibutramin təsiredici maddəsinin ümumilikdə 10 min 92 əlavə təsiri haqqında məlumatlar mövcuddur. Sonda əhaliyə piylənməyə qarşı sağlam həyat tərzi, düzgün qidalanma, fiziki aktivlik kimi elm cəhətdən təsdiq olunan üsullara üstünlük verməri və sağlamlığa ziyan gətirən belə məhsulların istifadəsindən uzaq durmaları tövsiyə olunur. Sirr deyil ki, apteklərdə arıqlamaq üçün başqa çaylar da satılır. Artıq çəki problemi olanlar üçün ən optimal yol nədir?

Mövzu ilə bağlı həkim-dietoloq Ləman Süleymanova “Yeni Müsavat”a danışıb: “Bir həkim kimi izah etmək istərdim ki, ”sibutramin" toxluq hissini artıran, iştahanı azaldan və metabolizmə təsir edən bir maddədir. O, kimyəvi quruluşuna görə amfetamin törəməsidir. Çox təəssüf ki, ölkəmizdə sosial şəbəkələrdə, xüsusilə “Instagram”da, insanlara “dietoloq” adı altında arıqladıcı dərmanlar, kokteyllər və çaylar satılır. Bu, təşkilatlanmış bir şəbəkədir. Həmin şəbəkələrdə həkim olmayan insanlar müxtəlif qruplara bölünürlər. Bir qrup yalnız sosial şəbəkələr üzərindən fəaliyyət göstərir. Onlar yalançı həkim və dietoloq kimi tanıdılır, insanları cəlb edərək marafonlar təşkil edir, müxtəlif arıqladıcı çaylar satırlar. Təbii ki, bu işlərin arxasında böyük bir şirkət dayanır. Digər bir qrup isə artıq biznesdə daha aktiv fəaliyyət göstərir. Onlar şirkət açır, insanları müayinə etmə adı ilə qəbul edir və müxtəlif kokteyllər, çaylar satırlar. Bəzi hallarda hətta endokrinoloqlar da bu cür arıqladıcı dərmanları tövsiyə edirlər. Azərbaycanda da qeyd etdiyim kimi, 2016-cı ildən etibarən “sibutramin” rəsmi siyahıya salınıb və dövlət səviyyəsində bu maddənin ölkəyə gətirilməsi qadağan olunub. Lakin təəssüf ki, qara bazarda bu cür preparatlar hələ də satışdadır".

Həkim qeyd edib ki, istər sosial şəbəkələrdə, istərsə də apteklərdə satılan istənilən arıqladıcı kokteyl və çaylarda təhlükəli “sibutramin” maddəsi var: “Bir həkim kimi qeyd edim ki, bütün arıqladıcı kokteyllərin, çayların tərkibində bu maddə var. Hətta bəzi arıqladıcı çay və kokteyllərin üzərində tərkibi qeyd olunmasa da, onların içərisində ”sibutramin" mövcuddur. Qeyd etdiyim kimi, Avropa Dərman Agentliyi bu maddəni qadağan etdiyinə görə artıq bir çox şirkətlər arıqladıcı çay və kokteylərin tərkibində bu maddəni qeyd etmir, halbuki mövcuddur. Hətta bəzən deyirlər ki, hansısa arıqladıcı çay və kokteyl tamamilə bitki tərkiblidir. Bu, mümkün deyil. Hansı bitki insanda iştahanı küsdürür?

Bu maddənin insan orqanizminə ciddi zərərləri var. İlk növbədə, insanın əhval-ruhiyyəsinə mənfi təsir göstərir. Çünki müəyyən dərəcədə narkotik təsirə malikdir və beyinlə bədən arasında asılılıq yaradır. Bu maddə toxluq hissi yaratmaqla yanaşı, orqanizm üçün vacib olan faydalı yağları bədəndən çıxarır. Nəticədə, bu vasitələrlə arıqlayan insanlarda immunitet aşağı düşür, infeksiyalara qarşı davamlılıq zəifləyir, halsızlıq və yuxusuzluq yaranır.

Bu proses narkotik asılılığına bənzəyir: əvvəlcə insan özünü yaxşı hiss edir, lakin tədricən orqanizm üçün həyati vacib maddələr xaric olur. İlk 5-6 gündə müəyyən kilo itkisi müşahidə edilsə də, bu, əsasən, bədəndəki su və piy toxumalarının boşalması ilə əlaqədardır. İnsan bu vasitələrin mənfi təsirini hiss etdikdə istifadəsini dayandırır və bundan sonra sürətli çəki artımı başlayır. Bu proses narkotik istifadəsinə bənzəyir: sümüklərdə və oynaqlarda ağrılar, görmə qabiliyyətinin zəifləməsi, panik ataklar, sinir sistemi pozuntuları yaranır.

Bundan əlavə, “sibutramin” mədəaltı vəzi funksiyasını tamamilə sıradan çıxara bilər, qaraciyərə ciddi zərbə vura bilər və ürək-damar xəstəlikləri olan insanlar üçün ölümcül təhlükə yarada bilər. Hətta sağlam insanlarda belə bu maddə ürək-damar problemlərinə səbəb olur. Bu maddədən istifadə edən ürək-damar xəstələri üçün isə nəticə çox ağır ola bilər.

Qalxanabənzər vəzi xəstəliklərindən əziyyət çəkən insanlar üçün də “sibutramin” tərkibli çay və kokteyllər ciddi təhlükə yaradır.

Bundan başqa, psixotrop dərmanlar qəbul edən insanların bu arıqladıcı vasitələrdən istifadə etməsi orqanizm üçün son dərəcə təhlükəlidir. Bu vəziyyət insanlarda şok reaksiyalar və ciddi sağlamlıq problemləri yarada bilər. Bu səbəbdən, hər kəs arıqladıcı məhsulları qəbul etməzdən əvvəl ciddi düşünməlidir.

**❑ Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# "Zon"dakı fərqli şərtlər, əfv-amnistiya şansı

## Ümumi rejim, ciddi rejim və "ömürlük"lər...

**Xəbər verildiyi kimi, Biləsuvarın həbsdə olan sabiq icra başçısı Mahir Quliyev ciddi rejimli cəzaçəkmə müəssisəsindən ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilməsi ilə bağlı məhkəməyə müraciət edib. Müraciət Nizami Rayon Məhkəməsində icraata götürülüb.**

Mahir Quliyev 2020-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla həbs olunub. Korrupsiya cinayətlərində ittiham olunan sabiq icra başçısı Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib. Şirvan Apelyasiya Məhkəməsi də birinci instansiya məhkəməsinin hökmünü dəyişdirmədən saxlayıb. Ali Məhkəmədə isə Mahir Quliyevin cəzası 11 ildən 8 il 3 aya endirilib.

Bəs cəza evlərindəki saxlanma şəraitlərində (ümumi rejim, ciddi rejim, ömürlük) əsas fərqlər nələrdir? Həmin dustaqlara nə olar, nə olmaz? Məsələn, onların hamısının, o cümlədən "ömürlüklər"in seçkilər zamanı səs hüququ varmı? Kimlərin əfvə və ya amnistiyaya düşmək şansı ümumiyyətlə yoxdur?

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir: "Cəza təyin edilərkən cinayətlərin residivi nəzərə alınır. Yəni cəza əmələ uyğun təyin olunur. Cəzaların icrası və çəkilməsi zamanı məhkumların aşağıdakı hüquqları var:

- cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək;
- ictimai faydalı əməklə məşğul olmaq;
- bədən tərbiyəsi və idmanla məşğul olmaq;
- istirahət etmək;
- pensiya və ya sosial müavinət almaq;
- ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq;
- öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barəsində məlumat almaq;



- hüquq və azadlıqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək;
- cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək;
- dini ayinlərin icra edilməsində iştirak etmək;
- hüquqi yardım almaq;
- "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;
- təhsil almaq və peşə hazırlığı keçmək;
- əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək;
- cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki pozuntulardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək.

Məhkumların hüquqları Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulur. Cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və azadlıqları təmin olunur. Məhkumların hüquq və azadlıqları yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məhdudlaşdırıla bilər.

Məhkumlar saxlanıldıqları müəssisənin dəyişdirilməsi ilə məhkəməyə müraciət hüququ da tanınır. 2019-cu ildə Ədliyyə Nazirliyinin Kollegiyası tərəfindən təsdiqlənən və həmin ilin noyabrın 1-dən qüvvəyə minən "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti haqqında Əsasnamə"də əksini tapıb. Beləliklə, Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin bu Əsasnamə və digər hüquqi aktlar ilə müəyyən edilmiş səlahiyyətlər daxilində penitensiar müəssisələrdə cəza çəkən məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl və xəstəliyə görə azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi və cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı tədbirlər görmək vəzifəsi var.

Qeyd edək ki, yeni Əsasnamənin qəbul edilməsi ilə əlaqədar Ədliyyə Nazirliyi üzrə 25 iyun 2008-ci il tarixli 16-T nömrəli əmri ilə təsdiqlənmiş Ədliyyə Nazirliyinin Penitensiar xidməti haqqında Əsasnamə qüvvədən düşüb. Həmin Əsasnamədə Ədliyyə Nazirliyinin Penitensiar xidmətin penitensiar müəssisələrdə cəza çəkən məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl və xəstəliyə görə azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi və cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı tədbirlər görmək vəzifəsi əksini tapmamışdı.

Bundan başqa, respublika quruluşlu dövlətlərdə seçki hüququ vətəndaşların seçmək və seçilmək hüququndan istifadə imkanlarını artırır, bu hüquqdan dövlət hakimiyyətinin ali orqanlarının formalaşdırılmasında ən düzgün imkan olaraq istifadə edilməsinə zəmin yaradır. Seçmək və seçilmək, hüquqi terminlərlə desək aktiv və passiv seçki hüququ şəklində həyata keçirilir. Seçki hüququ vətəndaşların dövlət və bələdiyyə orqanları üzvlərini seçmək, habelə referendumda həlledici səslə iştirak etmək hüququdur, bu hüquqa 18 yaşına çatmış hər kəs malikdir. Passiv seçki hüququ vətəndaşın seçkidə dövlət və bələdiyyə orqanlarına seçilmək hüququdur. Eyni zamanda cəzaçəkmə müəssisələrində olan məhkumların da səsvermədə iştirak hüququ var və bunun üçün müvafiq şərait yaradılır, məhkumlar istənilən seçkidə aktiv şəkildə iştirak edirlər. Seçmək hüququ ilə bağlı məhkumlara məhdudiyyətlər tətbiq edilə bilməz. Aktiv seçki hüququndan bəhs edərkən, 18 yaşına çatmış hər bir Azərbaycan Respublikasının vətəndaşı bu hüquqlara malikdir. Azərbaycanda yaşayan xarici ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin, fəaliyyət qabiliyyətsizliyi məhkəmənin qərarı ilə təsdiq olunan şəxslərin, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin, o cümlədən xaricdə yaşayan azərbaycanlıların bu hüququ həyata keçirmək üçün qaydalar var. Xarici ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin Seçki Məcəlləsinə görə müəyyən hallarda aktiv seçki hüququ (səs vermək hüququ) var. Seçki Məcəlləsinin 12.2-ci maddəsinə görə vətəndaşlığı olmayan şəxslər 5 ildən az olmayaraq Azərbaycan ərazisində daimi yaşayırlarsa referendumda, Milli Məclisə seçkilərdə, Prezident seçkilərində və bələdiyyə seçkilərində səsvermələrdə iştirak edə bilərlər. Əlbəttə, bu zaman digər seçicilər üçün zəruri olan özəlliklər bu seçicilər üçün də keçərlidir. Onlar 18 yaşını tamamlamış olmalı, qanunda nəzərdə tutulan formada seçki hüququnu itirməməlidirlər. Seçki Məcəlləsinin 12.3-cü maddəsi ilə xarici ölkə vətəndaşlarının bələdiyyə seçkilərində səsvermə hüququ tanınır. Lakin bu hüququn həyata keçirilməsi üçün müəyyən şərtlər nəzərdə tutulub. Xarici ölkə vətəndaşları müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşamalı və onun vətəndaşı olduğu ölkənin qanunvericiliyində xarici ölkə vətəndaşlarına bələdiyyə seçkilərində səsvermə hüququ tanınmalıdır. Fəaliyyət qabiliyyətsizliyi məhkəmənin qərarı ilə təsdiq olunan şəxslər seçmək və seçilmək hüququndan məhrumdurlar. Bunun əsas səbəbi bu qrup şəxslərin öz hərəkətlərinin mənasını başa düşməməsi və ya öz hərəkətlərini idarə edə bilməməsidir. Məhkəmə qaydasında fəaliyyət qabiliyyətsiz elan olunmayan şəxslər, hətta ruhi xəstə olmasına baxmayaraq seçmək hüququndan məhrum olmur. Qeyd edilən hallardan başqa digər hallarda vətəndaşların seçmək hüququ məhdudlaşdırıla bilməz. Məhkumların da səsvermə hüququ təmin olunur. Seçki Məcəlləsinə əsasən məhkəmənin qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslər; məhkumluğun ödənilməsindən və ya götürülməsindən asılı olmayaraq, ağır və xüsusi ilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər seçilmək hüququna malik deyillər.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

## Maşında marixuana çəkdi, polis qoxudan şübhələndi - Bakıda ilginc olay



**Bakıda narkotik vasitə istifadəçisi olan şəxs saxlanılıb. O, maşında marixuana qəbul etdiyi üçün polis əməkdaşı tərəfindən şübhəli şəxs kimi polis şöbəsinə dəvət edilib.**

Musavat.com xəbər verir ki, 1982-ci il təvəllüdlü B.Məmmədov Bakıda avtomobil idarə edən zaman yol hərəkəti qaydasını pozub.

Polis əməkdaşı ona yaxınlaşan zaman maşından spesifik qoxu gəldiyini hiss edib və maşından düşməsini istəyib.

Daha sonra polis əməkdaşı B.Məmmədovu avtomobili ilə birlikdə Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Şöbəsinə aparıb. Onun üzərinə baxış zamanı marixuana aşkar edilib.

B.Məmmədov üzərində olan narkotiki könüllü təhvil verib. Bildirib ki, 15 ildir narkotik vasitə olan marixuana istifadə edir. O, üzərində olan narkotik vasitəni Cəbrayılda işləyən zaman yerdən tapdığını, istifadə üçün üzərində gəzdirdiyini deyib.

B.Məmmədovun sözlərinə görə, həmin gün marixuananı maşında qəbul edib. Yolda polis onu saxlayan zaman maşından qoxu gəlib. Polis əməkdaşı ondan sənədləri tələb edəndə həyəcanlandığını, özünü şübhəli apardığını deyən B.Məmmədov sonradan hər şeyi könüllü etiraf etdiyini bildirib.

Məhkəmənin hökmü ilə B.Məmmədov 2 il 6 ay müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilib.

❑ **İ.MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025

# ABŞ Ermənistana yerini göstərdi - bölgədə Azərbaycana üstünlük verəcək

## Baş nazirin uğursuz Amerika səfəri; təhlilçilərə görə, Tramp komandası Paşinyanla işləməyə meyilli deyil, çünki...

**Ermənistan baş naziri Nikol Paşinyanın 4 günlük ABŞ səfəri (4-7 fevral) bitdi. Məlumata görə, səfərin rəsmi səbəbi Beynəlxalq Din Azadlığı Sammiti və Milli Dua Tədbirində iştirak idi. Ancaq aydındır ki, gerçək hədəf başqa olub.**

Paşinyan ABŞ-yə işgüzar səfəri çərçivəsində yalnız vitse-prezident Ceyms David Venslə görüşə bilib. Bu barədə Ermənistan hökumətinin mətbuat xidmətinin yayımladığı qısa məlumatda deyilir ki, danışıqlar zamanı tərəflər Cənubi Qafqazdakı vəziyyəti və İrəvanla Vaşinqton arasında münasibətləri müzakirə ediblər.

Maraqlıdır ki, Paşinyan Vaşinqtonda Atlantik Şurasında keçirdiyi görüşlərdə region ölkələri ilə münasibətlər, sülh prosesi ilə bağlı müzakirələr apardığı, debatlara qatıldığı bir dönəmdə Atlantik Şurasının saytında Azərbaycanla bağlı geniş məqalə dərc edilib. Məqalədə Azərbaycan etibarlı, tolerant və sülh tərəfdarı olan ölkə kimi xarakterizə olunub.

Şübhəsiz ki, nüfuzlu "beyin mərkəzi" olan Atlantik Şurası tərəfindən dərc olunan məqalə Tramp administrasiyasının Azərbaycana necə böyük önəm verdiyinin göstəricisidir. "ABŞ Azərbaycan-İsrail əlaqələrinin dərinləşməsindən necə faydalana bilər" başlıqlı məqalədə Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlərin necə mühüm əhəmiyyət kəsb etdiyi xüsusi vurğulanır.

Bəs Nikol Paşinyan Amerikadan konkret hansı nəticə, yaxud təlimatla qayıdıb? Əsas məqsədinə çatdımı? Qayıtdıqdan sonra Bakı ilə ritorikası necə olacaq, yumşalacaq, yoxsa?

"Biz ABŞ üçün heç bir strateji maraq kəsb etmirik. İkincisi, orada diplomatiyamız yoxdur, peşəkar diplomatlarımız yoxdur, bunlar küçədən gələn insanlardır... Belə bir səfər aylar öncədən razılaşdırılmalı idi - kiminlə görüşdüyünüz, hara gedəcəyiniz və sair".

Bunu erməni politoloq Artur Xaçikyan Paşinyanın ABŞ səfərini şərh edərkən deyib. Onun dediyinə görə, nə Tramp, nə də dövlət katibi Rubio Paşinyanla görüşə vaxt ayırmaq istəməyib: "Hakimiyyət diplomatiyanın nə olduğunu başa düşmür, bütün ümidlərini Baydenə bağladılar və yeni administrasiyada təsirsiz qaldılar. Baxın, biz Amerika ilə strateji müqavilə imzaladıq, amma bundan heç nə çıxmadı, liderimizlə belə görüşmədilərE Biz demokratiya istəyirik, Qərbi istəyirik, rusları istəmirik. Lakin rusları daim təhqir edən, Qarabağdan imtina edən, Rusiya ilə münasibətləri korlayan Ermənistanın lideri Trampla 15 dəqiqəlik görüşə belə layiq görülmədi".

Milli Məclisin üzvü Kamran Bayramov "Yeni Müsavat"a bildirdi ki, Paşinyan ABŞ səfərində xəyal qırıqlığına uğradı: "Ermənistan hakimiyyəti gizlətməyə çalışsa da, Ağ Evin yeni sahibi Donald Trampın Cənubi Qafqazla bağlı yürüdəcəyi siyasətlə əlaqədar ciddi narahatlığının olduğu çoxdan məlum idi. Elə İrəvanın, sələfiyyətlərini təhvil verməsinə az qalmış Bayden administrasiyası ilə "strateji əməkdaşlıq xartiyası" imzalaması faktı da bu narahatlığından irəli gəlirdi. Çünki İrəvan Vaşinqtondakı yeni komandanın Ermənistanla normal münasibətlərə maraq göstərəcəyinə əmin olsaydı, bu halda həmin "xartiya"nı Donald Tramp administrasiyası ilə imzalayardı. Bu gün Ermənistan hökuməti ABŞ Prezidenti Donald Trampın administrasiyası ilə yaxınlaşmaq üçün dəridən-qabıqdan çıxır. Ermənistanın baş naziri Nikol Paşinyanın sayca 5-ci Beynəlxalq Dini Etiqad Azadlığı Sammitində və Milli Namaz Səhər yeməyində iştirak etmək üçün Vaşinqtona işgüzar səfəri də bu qəbildəndir. Paşinyan dini tədbiri bəhanə edərək ABŞ prezidenti Donald Trampla görüşə can atsa da, istəyinə nail olmayıb".

Görünən odur ki, Tramp administrasiyası bölgədə gedən prosesləri diqqətlə izləyir. Gəldiyi qənaət isə bundan ibarətdir ki, regionda söz sahibi məhz Azərbaycandır.

Ermənistanın rəsmi təbliğat maşını Paşinyanın bu səfərini Ağ Evdəki yeni administrasiyanın dəstəyini qazanmağa hesablanmış addım kimi ictimai rəyə sırımağa çalışsa da, hayların müstəqil və müxalif mövqeli ekspertləri bunun belə olmadığını iddia edirlər. Bildirirlər ki, Paşinyan faktiki olaraq, ABŞ-a beynəlxalq dini konfransda iştirak etməkdən ötrü gedib. Amma məsələ ondadır ki, həmin sammit artıq 5-ci dəfədir keçirilir və bu günədək tədbirə, demək olar, heç bir ölkənin lideri qatılmayıb. Sammitlə bağlı o da xüsusi vurğulanır ki, 2019-cu ildə, Donald Trampın birinci prezidentliyi dövründə yaradılan bu format Çinə qarşı qurulub. Yəni hay ekspertləri bildirirlər ki, bu səfərin Ermənistana heç nə verməyəcəyi bir yana, əksinə, rəsmi İrəvan Çinin timsalında özünə daha bir düşmən qazanmış olacaq. Həm də dünyanın ən nəhəng düşmənini!

İrəvandakı Qafqaz İnstitutunun elmi işçisi Qrant Mikayelyan Paşinyanın Vaşinqtona səfərində ciddi perspektiv görmür. "İrəvanın Amerika hakimiyyətinin nümayəndələri ilə heç bir rəsmi görüş elan etmədiyini nəzərə alsaq, səfər adi diplomatik məntiqə uyğun gəlmir. Ümumiyyətlə, Trampın Cənubi Qafqazda nə edəcəyi, hansı strategiyalarla razılaşdığı və s. barədə heç bir anlayış yoxdur. Eyni zamanda, Paşinyan hökumətinə lazımdır ki, ABŞ rəhbəri heç olmasa sələfi Cozef Bayden Administrasiyasının üzərinə götürdüyü öhdəlikləri təsdiq etsin".

Deputat diqqətə çatdırıb ki, indiyə qədər Trampın ilk qərarları Ermənistana narahatlıqdan başqa bir şey gətirməyib. Ağ Evin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətini Amerikanın milli maraqlarına cavab vermədiyi üçün bağlandığını elan etməsi də hayları xəyal qırıqlığına uğradıb. Nəticə olaraq deyə bilərik ki, Paşinyanın Amerika səfərindəki uğursuzluqların əsas səbəbləri regiondakı geosiyasi vəziyyət, Ermənistanın daxili siyasi problemləri, ABŞ-in prioritetləri və iqtisadi amillərlə bağlıdır. ABŞ-in xarici siyasəti müxtəlif regionlarda fərqli prioritetlərə malikdir. Ermənistanın regiondakı rolu və strateji əhəmiyyəti ABŞ üçün ikinci dərəcəlidir. Bu səbəbdən Paşinyanın səfəri zamanı gözlənilən dəstək və ya əməkdaşlıq həyata keçmədi. Bütün göstərilən bu amillər bir-biri ilə əlaqəli olaraq səfərin uğursuzluğuna səbəb olub".

Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva Tramp hakimiyyətinin Paşinyan hökuməti ilə işləmək meylinin olmadığını düşünür: "Nikol Paşinyan Vaşinqtona çatan kimi erməni lobbisi onun oraya getməsinə etiraz etdi. Hətta bir qrup diaspora fəalı onun siyasətini kəskin şəkildə tənqid edərək aksiya keçirdilər. Elə bu görüntülər Ermənistan baş nazirinin ABŞ-a səfərinin uğursuz keçəcəyinin işartısı idi. Daha sonra senatorlar və konqreslərlə əl sıxan Nikol Paşinyan prezident Trampla görüşmək üçün dəridən-qabıqdan çıxdı. Amma Birləşmiş Ştatların yeni prezidentinin Ermənistanın baş nazirinə ayırmağa vaxtı olmadığı aydınlaşdı. Heç dövlət katibi də Paşinyanla görüşməyə vaxt tapmadı.

Əslində bu, ABŞ-ın yeni siyasi xəttində Ermənistanın yerinin göstəricisi idi. Yəni Nikol Vovayeviçi ən yaxşı halda koliforniyalı erməni pərəst senatorlar qarşılaya bilərdi. Bu o deməkdir ki, Tramp hakimiyyəti ortalıqda qalmış, tez-tez qucaq dəyişməyə öyrəşmiş Nikol Paşinyanla işləməyə meylli deyil. Hətta yenicə imzalanan xartiya da Paşinyanın köməyinə çatmayacaq. Baxın, Tramp əvvəlki hakimiyyətin qəbul etdiyi qərarları dəyişir və yaxud ləğv edir. Düşünürəm ki, Paşinyanın ABŞ senator və konqresmenlərlə görüşündə sazişin təsdiqi, qüvvəyə minməsi və fəaliyyət mexanizmləri ilə bağlı məsləhətləşmələr aparılıb. Bu o deməkdir ki, Ermənistan sadəcə, müəyyən zamanlarda siyasi alət kimi istifadə edib bir kənara atılacaq "maşa"dır. Bu, ABŞ-ın yüz illərdir dəyişməyən siyasətidir.

İlk günlərdən görünən odur ki, Tramp admisinistrasiyası Azərbaycanla işləməkdə maraqlıdır. Bu da Paşinyanı dalana dirəyən ikinci addımdır. Ermənistanın baş naziri düşünür ki, ABŞ-ın dəstəyi olmadan təkcə Fransanın fitnələrinə bel bağlamaq olmaz. Ona görə də Amerikadan qayıtdıqdan sonra Nikolun ilk işi sülh prosesini sürətləndirmək və Zəngəzur dəhlizinin açılması üçün "uyğun variant axtarmaq" olacaq. Bir sözlə, İrəvan yenə də Bakının diktəsi ilə danışıqlar prosesinin sürətli mərhələsinə qayıdacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**





## Tramp BCM-ə sanksiya tətbiq etdi - İsrailə görə

**Donald Tramp ABŞ və onun müttəfiqləri, o cümlədən İsraillə bağlı araşdırmalara görə Beynəlxalq Cinayət Məhkəməsinə maliyyə sanksiyaları tətbiq edən sərəncam imzalayıb.**

Bu barədə "Foks Nyus" məlumat yayıb.

Sərəncamda deyilir ki, BCM ABŞ və İsrailə qarşı qanunsuz və əsassız addımlar atıb: "BCM hüquqi əsas olmadan yurisdiksiya bəyan edib və ABŞ, eləcə də bəzi müttəfiqlərin, o cümlədən İsrailə qarşı ilkin araşdırmalara başlayıb, Benyamin Netanyahu, həmçinin keçmiş müdafiə naziri Yoav Qallanta əsassız həbs orderi verməklə səlahiyyətlərindən sui-istifadə edib".

Vurğulanır ki, BCM-in ABŞ və ya İsrail üzərində yurisdiksiyası yoxdur, çünki heç bir ölkə Roma Statutunun tərəfi və ya məhkəmənin üzvü deyil.

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025

# Gözəllik salonlarında təşviş: reklamlar sökülüb, işıqlar söndürülüb - Reportaj

## Plastik cərrahların ardından yoxlama növbəsinin kosmetoloji prosedurlara çatacağı xəbəri obyekt sahiblərinin canına vəlvələ salıb - əməkdaşımızın qeydləri...

**Səhiyyə Nazirliyinin plastik cərrahları yoxlamasının ardından kosmetoloji prosedurlarla bağlı da bir sıra qadağaların olacağı xəbəri gözəllik salonlarında çalışanları vəlvələyə salıb. Buna səbəb Analitik Ekspertiza Mərkəzinin mediaya verdiyi açıqlama olub.**

Qeyd edilir ki, tibbi kosmetologiyaya cərrahi müdaxilələr istisna olmaqla (plastik cərrahiyyəyə aid olduğundan) konservativ və korreksiya üsulları daxildir. Bu üsullara inyeksiya (iynə) prosedurları, müxtəlif növ aparat kosmetologiyası (o cümlədən lazer üsulu ilə epilyasiya), biorevitalizasiya, mezoterapiya, pilinq prosedurları, müalicəvi masaj üsulları, plazmolifting və digər prosedurlar aid olunur. Bu üsullar "kosmetoloji" işə aid olunduğundan müvafiq iş üzrə özəl tibb xidməti fəaliyyətinin göstərilməsi üçün lisenziya tələb olunur. Bu sahədə praktiki tibbi fəaliyyət üzrə müvafiq sertifikatı olan həkim-dermatoloqlar və tibbi kosmetologiya üzrə ixtisaslaşma keçmiş ali tibbi təhsilli mütəxəssislər məşğul olmaq hüququna malikdirlər. "Yeni Müsavat"ın xəbərinə görə, bu məlumat gözəllik salonlarının kosmetoloqları və lazeroloqları narahat edib, müxtəlif sosial şəbəkələrdə narazılıqlarını ifadə edirlər.

Odur ki, Bakının Nizami rayonunda bir neçə gözəllik salonuna baş çəkib, vəziyyəti yaxından öyrənməyə çalışdıq. Nəzəri ilk cəlb edən isə o oldu ki, bəzi salonlarda əvvəldən üzərində böyük hərflərlə "Lazer epilyasiyası" yazılmış reklam şitləri yığışdırılıb. Bəzi gözəllik salonlarının işıqları isə tamamilə sönmüş, fəaliyyətləri dayandırılmışdı. Bunu yaxınlıqdakı gözəllik salonunda da təsdiqlədilər. Deyildi ki, həmin salonların lisenziyası olmadığına görə bir neçə gündür fəaliyyətlərini dayandırıblar. Saç ustası kimi çalışan Aynur isə deyir ki, bir çox salonlarda lazer ustalarının təhsili var, amma bəzi salonlarda lazer epilyasiyasından sonra qadınların üzündə ləkələr yaranır. "Əlbəttə, bu doğru deyil. Mən özüm də narazıyam. Məsələn, yaxınlarda "bərk gedən" kosmetoloq alınma "dolğu" etdi, baxın alnım nə günə qalıb, necə çöküb. Özü də telekanallarda reklam olunan kosmetoloqdur. Bu cür problemlərə görə qayda-qanunun olması yaxşıdır. Amma dəstək olsunlar, salonu bağlamaqla məsələ bitmir ki. Mən saç ustasıyam, deyirlər bizdən də sənəd istəyəcəklər. Mən nə etməliyəm? Yer desinlər gedək oxuyaq, kurs varmı? Bu zamana kimi niyə demirdilər?"- deyə həmsöhbətimiz şikayətləndi. O, Məşğulluq Agentliyinə kurs keçmək üçün müraciət etdiyini söylədi: "Hələ ki, çağırmayıblar, cavab gözləyirəm. Bizə deyiblər ki, diplomumuz olmasa 5 min cərimə olunacağıq. Kasıb adamıq, kirayə qalırıq, uşağıma bir tikə çörəyi necə aparım... Özü də yanvar ayından işimiz çox zəifləyib. Heç yüz manat qazanmamışam".




Saç ustası ilə söhbətimizi başa vurub digər gözəllik salonuna daxil oluruq. Burada da qapının üzərində qeyd edilməsə də, içəridə lazer proseduru aparılırdı. Jurnalist olduğumuzu bildikdən sonra isə danışmaq istəmədilər. Eyni hal bundan sonra daxil olduğum salonda da yaşandı. Üzərində "Lazer" yazılan digər salonda isə xeyli giley-güzar eşitdik və jurnalist olduğumuzu bilib çoxlu suallar verdilər. "Mən bu aparata bir evin pulunu vermişəm, hələ kreditini ödəyirəm. Bundan sonra harada işləyəcəm?" - deyə Gülər adlı lazeroloq ritorik sual verir. "Bu vaxta kimi niyə demirdilər? Bundan sonra mən tibb təhsili ala bilmərəm axı?! Kurs oxuya bilərik, heç olmasa desinlər hansı kurslarda oxumalıyıq. "Qara Qarayev", "Gənclik", "Neftçilər"də kurslar var. Bu kursları bitirənlərin diplomu qəbul edilirmi? Bəs niyə bu qərarlar aptekdə işləyən əczaçılara aid edilmir. Əksər apteklərdə işləyənlərin heç ali təhsili yoxdur. Hansısa kursu bitiriblər. Onda bizə də apteklərdə olduğu kimi icazə versinlər", - Gülər xanım fikirlərini tamamlayır.

Ünvanlanan suallarla bağlı Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinə sorğu ünvanladıq. Qurumdan "Yeni Müsavat"a bildirildi ki, lazer üsulu ilə epilyasiya proseduru da tibbi kosmetologiyaya aid olub, icrası tibb müəssələrində tibb təhsili olan mütəxəssislər (ixtisaslı həkim dermatoloqun nəzarəti altında dövlət sertifikasiya şəhadətnaməsinə malik tibb bacısı və ya tibb qardaşı) tərəfindən həyata keçirilməsi zəruridir: "Gözəllik salonları bərbər və vizajist xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulan sahibkarlıq subyektlərinin fəaliyyətinə nəzarətlə bağlı səlahiyyətləri çərçivəsində planlı yoxlamaların aparılması Səhiyyə Nazirliyinə aid olmadığı üçün onların fəaliyyətinə nəzarət aidiyyəti qurumlar tərəfindən tənzimlənir. Həmçinin də gözəllik salonları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 07 aprel 2009-cu il tarixli 37 nömrəli əmri ilə təsdiq edilən "Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair qaydalar"a cavab vermədiyindən həmin müəssisələrdə tibbi kosmetoloji prosedurların həyata keçirilməsi birmənalı şəkildə yolverilməzdir. Gözəllik salonlarında tibbi kosmetoloji prosedurlar ilə bağlı Səhiyyə Nazirliyinə vətəndaş və yerli dövlət özünüidarəetmə orqanlarından fakta əsaslanan müraciətlər daxil olduqda Analitik Ekspertiza Mərkəz tərəfindən plandankənar yoxlamalar keçirilir ki, həmin xidməti yoxlamalar zamanı fakt öz təsdiqini tapdığı halda sahibkar subyektlərinə inzibati qaydada tənbeh tədbiri seçilərək barələrində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə inzibati xəta haqqında protokol tərtib edilir. Odur ki, gözəllik salonlarında mövcud tibbi kosmetoloji prosedurların həyata keçirilməsinin sahibkar subyektləri tərəfindən dayandırılması zəruridir. Əks halda onlar inzibati məsuliyyətə cəlb oluna bilərlər".





Qurumdan kurslarla bağlı verilən suala belə cavab verilib: "Tibbi kosmetoloji prosedurların icrası tibb müəssisələrində tibb təhsili olan mütəxəssislər (ixtisaslı həkim dermatoloqun nəzarəti altında dövlət sertifikasiya şəhadətnaməsinə malik tibb bacısı və ya tibb qardaşı) tərəfindən həyata keçirilməsi mütləqdir. Səhiyyə Nazirliyi tərəfindən tanınan müvafiq kurslar ixtisaslı tibb mütəxəssislərinin peşə fəaliyyətinin təkmilləşdirilməsi üçün nəzərdə tutulur. Lakin heç bir tibbi təhsili olmadan sadəcə kurslardan əldə edilən sertifikatlar ilə tibbi kosmetoloji işlərin həyata keçirilməsi qanunvericiliyə ziddir. Tibbi təhsili olmadan praktik tibb fəaliyyəti ilə məşğul olmaq, əhalinin həyat və sağlamlığını risk altına atmaq cinayət məsuliyyətidir. O ki qaldı əczaçıların diplomlarına, aptekdən dərman vasitələrinin buraxılması "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq sertifikasiyadan keçən ali və ya orta əczaçılıq təhsilinə malik mütəxəssislər tərəfindən həyata keçirilir.

Optik ləvazimatlar, pərakəndə satış üçün nəzərdə tutulan əczaçılıq məhsulları (pambıq, tənzif, bint, sarğı materialları, leykoplastrlar və digər analoji məmulatlar), ətriyyat-kosmetika, xüsusi təyinatlı qida məhsulları, təbii mineral sular, bioloji aktiv qida məhsulları və şəxsi sanitariya-gigiyena mallarının satışı isə qeyri-ixtisas sahibləri tərəfindən həyata keçirilə bilər.

❑ **Afaq MİRAYİQ,**
**Fotolar müəllifindir**
**"Yeni Müsavat"**



### Xalq artistindən plastik cərraha reaksiya: "Bu, haqq qələbəsidir"

**Xalq artisti Flora Kərimova plastik-cərrah Sevinc Heydərovanın lisenziyasının ləğv edilməsi ilə bağlı video yayımlayıb. Xalq artisti bildirib ki, uzun müddətdir S.Heydərovanın həkimlik lisenziyasının əlindən alınması üçün mübarizə aparır:**

"Bu, haqq, düz söz qələbəsidir. Bu qələbə çox insanın səhhətinin zəmanətidir. Neçə illərdir savadsız həkimlərlə savaşım bu gün nəticələndi. Onlar başa düşmədilər ki, hər dəfə milləti, xəstələri aldadanda özləri uçuruma gedirlər. Neçə dəfə mən Sevinc Heydərovaya demişdim ki, bacarmırsansa, bu işdən yapışma. Nəticəsi saxta sənədlər, sübutlar, adlar və fəaliyyət...

Ümumiyyətlə, iş çox mürəkkəb idi. Nə qədər saxtalıq olar. Sizin hər addımınız saxta idi. Düşünəndə ki, nə qədər belə həkimlər var, məni dəhşət bürüyür. Və hər bir xəstə həkimdən asılıdır. Hər mübarizə bugünkü nəticə ilə bitmir. Bu işi qələbə ilə nəticələndirən vəkillərimə təşəkkür edirəm". F.Kərimova bildirib ki, S.Heydərova ilə məhkəmə işi hələ də davam edir.

Son günlər Azərbaycanda plastik cərrahların fəaliyyətində ciddi nöqsanlar aşkarlanır, hətta onların yanlış əməliyyatı nəticəsində həyatını itirənlər var. Əldə olunan məlumatlara görə, plastik cərrahiyyə ilə məşğul olanların bəzilərinin tibbi təhsil sənədləri və praktik tibb fəaliyyəti ilə məşğul olmağa hüquq verən şəhadətnamələri yoxdur, yaxud da bu sənədlər saxta yolla alınıb. Buna görə də plastik cərrahiyyə ixtisası üzrə fəaliyyət göstərən tibb mütəxəssislərinin sözügedən istiqamətlə məşğul olmağa icazə verən sənədlərinin hüquqi əsaslarının kompleks şəkildə yoxlanılmasına ehtiyac yaranıb.

YENİ MÜSAVAT
N 24 (8634) 8 fevral 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Qadınların maaşı kişilərdən niyə azdır? - ayrı-seçkilik, yoxsa...

## Bu fərqin səbəblərini anlamaq üçün müxtəlif yanaşmalar mövcuddur - ekspert rəyi

**Azərbaycanda qadın və kişi əməkhaqqı arasındakı fərq hələ də mövcud olan əhəmiyyətli sosial məsələlərdən biridir. Son rəsmi statistikaya görə, muzdla işləyən qadınların orta aylıq əməkhaqqı 735 manat, kişilərin isə 1 069 manat olub. Bu, kişilərin qadınlardan 31 faiz daha çox maaş aldıqlarını göstərir.**

Hətta bəzi sahələrdə bu fərq daha da böyükdür; məsələn, peşə, elm və texniki fəaliyyət sahələrində qadınların maaşı kişilərə nisbətən iki dəfə azdır. Ən az fərq isə təhsil sahəsindədir, burada kişilər qadınlardan 14 faiz daha çox maaş alırlar. Bu vəziyyət sual doğurur: Əgər maaşlar cinsə görə müəyyən olunmur və bu fərqlər təbii olaraq yaranmamalıdırsa, niyə kişilər qadınlardan daha yüksək maaş alırlar? Bu, gender bərabərliyinin pozulması, yoxsa işin çətinliyi ilə bağlıdır?

Bu fərqin səbəblərini anlamaq üçün müxtəlif yanaşmalar mövcuddur. Bir tərəfdən, bu fərq gender ayrı-seçkiliyi ilə əlaqələndirilə bilər. Cinsiyyətə görə maaş fərqi, iş yerindəki diskriminasiyanın nəticəsi ola bilər. Bəzən qadınların işləri daha az qiymətləndirilir, ya da onların qarşısına daha az imkanlar çıxarılır. Qadınlar adətən daha az rəhbərlik mövqelərində olur və bu da onların gəlirlərini məhdudlaşdırır. Eyni zamanda, müəyyən sahələrdə iş şəraiti qadınların işə cəlb edilməsini çətinləşdirir. Məsələn, bəzi peşələrdə fiziki güc və ağır iş şəraiti tələb olunur ki, bu da qadınların iş gücünə qatılmalarını çətinləşdirir.

Digər tərəfdən, maaş fərqinin yaranmasında sosial və mədəni faktorlar da rol oynaya bilər. Azərbaycanda ənənəvi olaraq, kişilər daha çox gəlir gətirən sahələrdə işləyirlər, qadınlar isə çox zaman ailə və uşaqlarına qulluq etməyə üstünlük verirlər. Bu, iş bazarındakı gender stereotiplərinin və sosial gözləntilərin təsiridir.

Bu məsələni daha geniş kontekstdə nəzərdən keçirək: Dünyada bir çox ölkələrdə qadın və kişi əməkhaqqı arasındakı fərq var, amma bu fərqin səviyyəsi müxtəlif ölkələrdə fərqlənir. Məsələn, İskandinav ölkələri, xüsusilə İslandiya və Norveç, gender bərabərliyində öncülük edir və maaş fərqlərini azaltmağa çalışırlar. Lakin inkişaf etmiş ölkələrdə belə, bu fərq tamamilə aradan qaldırılmayıb. ABŞ, Böyük Britaniya və digər Avropa ölkələrində də gender əməkhaqqı fərqi mövcuddur, amma burada qanunvericilik və sosial siyasət qadın və kişilər arasındakı maaş fərqini azaltmağa yönəlib.

Azərbaycanın əmək bazarında da bu fərqi aradan qaldırmaq üçün müəyyən addımlar atılmaqdadır. Məsələn, 2023-cü ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilən qərar ilə qadınların işləyə bilmədiyi peşə və iş yerlərinin sayı 674-dən 204-ə endirilib. Bu addım qadınların iş gücünə daha geniş şəkildə qatılmalarını təmin etməyə yönəlmişdir. Lakin bu qadağa yalnız hamilə qadınlar və ya bir yaşınadək uşağı olanlar üçün tətbiq edilir.



Gender bərabərliyinin təmin edilməsi və maaş fərqinin aradan qaldırılması üçün daha çox təhsil, qanunvericilik və sosial dəstək lazım olacaq. Əməkhaqqı fərqinin tamamilə aradan qaldırılması, cəmiyyətdə gender bərabərliyini gücləndirəcək və daha inklüziv və ədalətli bir iş bazarı yaradacaqdır. Bu məqsədlə, həm dövlətin, həm də cəmiyyətin birgə səyləri böyük əhəmiyyət kəsb edir.

Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyev "Yeni Müsavat"a bunları deyib: "Bununla bağlı məsələ zaman-zaman müzakirə olunur. Lakin bəzən nədənsə bu müzakirələrə populist yanaşanlar olur. Halbuki bilməliyik ki, qadınlarla kişilər bərabər hüquqlara malikdirlər. Lakin elə iş sahələri var ki, ağır iş sahələri olduğuna görə burada kişilər çalışır və istər-istəməz əməkhaqqı da yüngül iş sahələrinə nisbətən daha yüksək məbləğdə olur. Qadınların isə səhhəti, reproduktiv sağlamlığına təhdid yaratdığı üçün bəzi iş sahələrində işləməsi qadağandır və bu onların xeyrinə olan məsələdir.

Bu baxımdan bir neçə il əvvələ qədər qadınların işləyə bilmədiyi peşə və iş yerlərinin sayı 674 idi. Artıq iki ildir ki, bu say 204-ə endirilib. Beləliklə də qadınlar artıq kişilərin çalışdığı sahələrdə çalışa bilirlər. Yəni elmi-texniki tərəqqi imkan verdi ki, ağır iş sahələrində də qadınlar işləyə bilsinlər. Bu baxımdan qadınların əməkhaqqında analoji artım baş verdi. Lakin qeyd etdiyim kimi, bu məhz qadınların xeyrinə olan qadağa idi ki, qadınların metallurgiya, radioaktiv sahələrdə və yaxud qazıntı işləri sahəsində işləməsi fiziki imkanları xaricində olduğuna görə və eyni zamanda reproduktiv sağlamlığa təhdid yaratdığı üçün qadınların xeyrinə müsbət yanaşma idi.

Yəni qadınlarla kişilərin əməkhaqları arasındakı fərqlər məhz işin çətinliyi kontekstində izah olunmalıdır. Digər sahələrdə eyni akt altında çalışırlarsa, dərəcə göstəriciləri eynidirsə, qadın və kişilərin əməkhaqqında heç bir fərq, diskriminasiya olmur. Bu məsələ Əmək Məcəlləsi ilə tənzimlənir. Sadəcə işin çətinliyi, vəzifə və dərəcədən asılı olaraq maaş fərqləri ola bilər.

Gender bərabərliyi kontekstində bu yanaşma ilə bağlı əsaslandırmalar yersizdir. Ədalət naminə deyək ki, Azərbaycanda gender bərabərliyi yüksək səviyyədə təmin olunub. Azərbaycan azsaylı ölkələrdəndir ki, Ailə, Qadın və Uşaq Komitəsi var. Ölkəmiz qadın hüquqları ilə bağlı beynəlxalq konvensiyaya da qoşulub, öhdəliklər götürüb və yüksək səviyyədə bu öhdəlikləri yerinə yetirir.

Bu baxımdan Azərbaycanda qadınlara qarşı olan münasibət digər ölkələrə nümunə ola bilər. Qadınlarımız qərar qəbul etmə sistemində çalışırlar, parlamentdə qadın millət vəkillərinin sayı xeyli artıb, parlamentin spikeri də qadındır. Həmçinin Birinci vitse-prezident xanımdır, komitə sədrləri olan xanımlarımız var. İcra strukturlarında birinci şəxslər səviyyəsində qadınların təmsilçiliyi kifayət qədərdir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Azərbaycanda repetitorluq ləğv edilir? - Komitə sədrindən açıqlama



**Azərbaycanda repetitorluğun ləğvi müzakirə edilir. Ötən gün mətbuat konfransında elm və təhsil naziri Emin Əmrullayev repetitorluğun mərhələli şəkildə ləğv ediləcəyini bildirib. O qeyd edib ki, müəllimlərin məktəb daxilində dərsdən sonra repetitorluqla məşğul olması doğru deyil.**

"Dəbə görə də repetitor yanına gedənlər var. Öz sinfində dərs dediyi uşağa dərsdən sonra da repetitorluq etmək ayıbdır. Repetitorluğun ləğvi birdən-birə aparıla bilməz, mərhələli şəkildə ləğv ediləcək", - nazir deyib.

Qeyd edək ki, repetitorluq məsələsi uzun illərdir müzakirə olunan təhsilin ən "yaralı" yerlərindən biridir. Bəzən repetitorluğun biznesə çevrilməsi ilə bağlı narahatlıqlar ifadə olunur. Bəzi müəllimlərin şagirdlərinə dərsdə yetərli bilik vermədikləri və onları öz evinə repetitor hazırlığına məcbur etdikləri barədə xəbərlər də geniş yayılıb.

Repetitorluq barədə müzakirə aparılarkən ən çox səsləndirilən fikirlər müəllimlərin maaşının az olması və bu səbəbdən repetitorluğa məcbur qalması ilə bağlı olur.

"Eyni müəllim necə ola bilər ki, məktəbdə pis tədris verir, amma evdə yaxşı?! Hesab edirəm ki, bu işdə əsas məsələ vicdandır. Cəmiyyətin də buna qınağı olmalıdır. Məktəbdə öz şagirdinə dərs deyən müəllim həm də onun repetitorudursa, bu, peşə etikasından uzaqdır. Bu, ayıbdır. Müəllim olaraq işini görüb dövlətdən maaş alırsa, dərs dediyi şagirdə də bunu düzgün öyrətməlidir", - ötən gün mətbuatla görüşündə nazir belə bir fikir səsləndirib.

Modern.az-a danışan Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov bildirib ki, Elm və Təhsil Nazirliyi repetitorluğu ləğv edə bilməz:

"Sadəcə olaraq repetitorluq tədricən aradan qalxa bilər. O da məktəblərdəki dərslərin səviyyəsi ilə bağlıdır. Məktəbin şəraiti, texniki bazası normal, lavazimatları yerində, istiliyi təmin edilmiş, müəllimi yüksək səviyyəli tədrisi yerində olduqdan sonra repetitorluğa ehtiyac olmur. Bunlar öz yerində olduqdan sonra repetitorluğa heç bir ehtiyac qalmayacaq. Emin Əmrullayev də dünənki çıxışında bunu nəzərdə tuturdu. Yoxsa əmrlə repetitorluğu ləğv etmək olmaz. Hər bir şagird müəllim yanına gedir, onun qarşısını kim ala bilər?! Kim deyə bilər ki, bu sistem ləğv olunsun?! Nazir o mənada dedi ki, mətkəblərdəki təhsil o qədər yüksək səviyyəyə qaldırılacaq ki, şagirdin başqa müəllimin yanına getməsinə ehtiyac qalmayacaq".

A.İsgəndərovun sözlərinə görə, burada müəllimlərin əmək haqqı yüksək olmalıdır:

"Bu gün müəllimi də fikirləşmək lazımdır. Müəllim nə üçün repetitorluq edir, abituriyent hazırlayır?! Onun da ehtiyacı var, onun gələcəkdə həmin ehtiyacı ödənəcək. Məktəb, müəllim və şagird üçün lazım olan şərait yaradılsa, repetitorluğa ehtiyac qalmayacaq. Məktəb deyəndə təkcə Bakını yox dağ rayonlarını, onların şəraitini də fikirləşmək lazımdır. Müəllimlər peşəkar və məktəbə məhəbbətlə fəaliyyət göstərməlidir. Müəllimin aldığı əməkhaqqı da burada əsasdır. Emin Əmrullayev onu dedi ki, bunların hamısı olacaqsa, nə müəllimin abituriyent hazırlamağa, nə də şagirdin əlavə müəllim yanına getməyə ehtiyacı olacaq".

# Kollec müəllim yetişdirməyəcək? - Təhsilin bu pilləsini necə dirçəltməli...

## Təhsil eksperti: "Azərbaycanda kolleclərin funksiyası hələ də tam müəyyən edilməyib"

**"Kolleclərdə bəzi fənlər üzrə hazırlıq onsuz da aparılmırdı. Məsələn, kimya, fizika, biologiya və riyaziyyat müəllimləri ali təhsil müəssisələrində hazırlanır. Kolleclərdə isə əsasən ibtidai sinif, musiqi, təsviri incəsənət və digər fənn müəllimləri hazırlanır". Bunu Elm və təhsil naziri Emin Əmrullayev bildirib.**

Onun sözlərinə görə, kolleclərdə, ibtidai sinif və məktəbəqədər təhsil üzrə müəllim hazırlığı məhdudlaşdırılacaq.

Məsələnin digər tərəfi ondan ibarətdir ki, müstəqillik qazandıqdan sonra təhsilin bu pilləsini inkişaf etdirə bilmədik. "Texnikum" "kollec"ə çevrildi. Ad dəyişdi, keyfiyyət isə...

Təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a şərhində dünya təcrübəsində kolleclərin daha çox texniki və peşə təhsili istiqamətində fəaliyyət göstərdiyinə diqqət çəkdi: "Hazırda kimya, fizika, biologiya və riyaziyyat kimi fənlərin müəllimləri ali təhsil müəssisələrində hazırlanır, kolleclərdə isə ibtidai sinif, musiqi, təsviri incəsənət və bəzi digər fənlər üzrə müəllimlər yetişdirilir. Bu sistemin dəyişdirilməsi, müəllimlərin yalnız ali təhsil müəssisələrində hazırlanması pedaqoji kadrların keyfiyyətinin artırılmasına yönəlmiş bir addım kimi qiymətləndirilir. Bu yanaşmanın əsas məqsədi təhsildə keyfiyyətin yüksəldilməsidir. Müəllim hazırlığı sahəsində beynəlxalq təcrübəyə nəzər saldıqda, inkişaf etmiş ölkələrdə pedaqoji kadrların əsasən universitetlərdə yetişdirildiyini görmək mümkündür. Finlandiya və Almaniya kimi ölkələrdə müəllimlik ixtisası üzrə təhsil almaq üçün yüksək akademik göstəricilər tələb olunur. Orta məktəb müəllimləri yalnız bakalavr və magistratura səviyyələrində müvafiq təhsil aldıqdan sonra peşə fəaliyyətinə başlaya bilirlər. Bu yanaşma müəllimlərin akademik və pedaqoji biliklərinin yüksək olmasını təmin edir. Müxtəlif ölkələrdə kolleclər daha çox texniki və peşə təhsili istiqamətində fəaliyyət göstərir. Məsələn, Kanada və Avstraliyada kolleclər əsasən mühəndislik, informasiya texnologiyaları, tibb bacısı və digər tətbiqi sahələr üzrə kadrlar yetişdirir. Peşə və texniki təhsilə fokuslanan kolleclər iş bazarının tələblərinə uyğun proqramlar təqdim edir və tələbələrin real əmək bazarına uyğun bilik və bacarıqlar əldə etməsini təmin edir. Nəticədə, kolleclərin məzunları iş tapmaqda daha az çətinlik çəkirlər. Azərbaycanda isə kolleclərin funksiyası hələ də tam müəyyən edilməyib. "Texnikum" sisteminin "kollec"ə çevrilməsindən sonra əsas dəyişikliklər struktur və ad dəyişikliyi ilə məhdudlaşıb. Tədris proqramları və məzmunun əmək bazarının tələblərinə uyğunlaşdırılması isə hələ də ciddi islahatlara ehtiyac duyur. Müstəqillikdən sonra kolleclər ali təhsil müəssisələri ilə rəqabət aparacaq səviyyəyə çatmadı və nəticədə məzunlar əmək bazarında çətinliklərlə üzləşdilər".

Müəllimlik ixtisaslarının kolleclərdən çıxarılması qərarının müsbət tərəfini şərh edən ekspert qeyd etdi ki, bu, ümumtəhsil məktəblərində daha hazırlıqlı və ixtisaslı kadrların fəaliyyət göstərməsinə imkan yaradа bilər:

"Pedaqoji təhsilin yalnız ali təhsil müəssisələrində verilməsi müəllimlərin daha yüksək akademik standartlara uyğun yetişdirilməsini təmin edə bilər. Bununla yanaşı, gələcək müəllimlərin pedaqoji təcrübə proqramlarında iştirak imkanları genişlənə bilər ki, bu da onların praktik bacarıqlarının inkişafına töhfə verər. Müəllim hazırlığının yalnız universitetlərdə aparılması kollec məzunları üçün müəyyən çətinliklər yarada bilər. Hazırda bir çox kolleclərin məzunları müəllim kimi fəaliyyət göstərməyə ümid edirdi və bu dəyişiklik onların gələcək planlarını dəyişdirməyə məcbur edə bilər. Bununla yanaşı, kolleclərdə müəllim hazırlığının dayandırılması ali təhsil müəssisələrinə əlavə qəbul yükü yarada bilər. Bu səbəbdən keçid prosesi tədricən və mərhələli şəkildə həyata keçirilməlidir. Kolleclərin funksionallığını artırmaq və onları əmək bazarının tələblərinə uyğunlaşdırmaq üçün bir neçə istiqamətdə islahatlar aparılmalıdır. İlk növbədə, kolleclərdə tədris olunan proqramlar müasir texnologiyalara və bazar tələblərinə uyğunlaşdırılmalıdır. Kollec təhsili praktiki biliklərə əsaslanmalı, tələbələrin real iş mühitinə inteqrasiyasını təmin etməlidir. Peşə təhsili müəssisələrinin işəgötürənlərlə daha sıx əməkdaşlıq etməsi tələbələrin təcrübə proqramlarına qoşulmasını və məzun olduqdan sonra asanlıqla iş tapmasını təmin edə bilər. Peşə və texniki təhsilin gücləndirilməsi üçün kolleclər müasir laboratoriyalar və avadanlıqlarla təmin edilməli, kadr potensialı gücləndirilməlidir. Müəllimlərin və tədris heyətinin ixtisasartırma proqramlarına cəlb olunması kolleclərdə təhsilin keyfiyyətini artıracaq və məzunların daha yaxşı hazırlanmasına töhfə verəcək. Təhsil sistemində ali və peşə təhsili arasında əlaqələrin möhkəmləndirilməsi kolleclərin funksionallığını artırmağa kömək edə bilər. Dünya təcrübəsində kolleclərin ali təhsilə inteqrasiyası ilə bağlı müxtəlif modellər tətbiq edilir. Bəzi ölkələrdə kolleclərin universitetlərə çevrilməsi və ya müəyyən proqramlarının ali təhsil sisteminə daxil edilməsi praktikasından istifadə olunur. Məsələn, ABŞ və Böyük Britaniyada bəzi kolleclər bakalavr proqramlarına keçid kursları təqdim edir. Bu kurslar tələbələrə əlavə illər oxumadan ali təhsil diplomu almaq imkanı yaradır. Kolleclərin inkişafı üçün təhsil sistemində differensiallaşdırılmış yanaşmalar tətbiq edilməlidir. Kolleclər sırf texniki və peşə sahələrində kadr hazırlamalı, ali təhsil müəssisələri isə akademik və nəzəri biliklərə əsaslanan proqramları icra etməlidir. Peşə təhsili müəssisələrinin əmək bazarının tələblərinə uyğun tədris proqramları təqdim etməsi məzunların iş imkanlarını artıracaq və kolleclərin nüfuzunu yüksəldəcək. Təhsil qanunvericiliyində kolleclərin funksiyası daha dəqiq müəyyən edilməlidir. "Təhsil haqqında" qanunda peşə təhsilinin inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlərin praktik tətbiqi gücləndirilməli, kolleclərin hüquqi statusu və onların ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivələri müəyyənləşdirilməlidir. Bu tədbirlər həyata keçirildiyi təqdirdə kolleclərin keyfiyyəti artırılacaq və onlar əmək bazarında daha mühüm rol oynayacaq".



❑ **Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"**



## Şagird məktəbli yoldaşına xəsarət yetirdi

**Kürdəmir şəhər 6 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi digər məktəbli yoldaşına xəsarət yetirib.**

Bu barədə Mərkəzi Aran Regoinal Təhsil İdarəsi məlumat yayıb. Bildirilib ki, fevralın 7-də Kürdəmir şəhər 6 nömrəli tam orta məktəbinin 10-cu sinif şagirdi həmin məktəbin 11-ci sinif şagirdinə xəsarət yetirib: "Xəsarət almış şagird tibb müəssisəsinə aparılıb. Hadisə ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır. Araşdırmanın nəticəsi barədə ictimaiyyətə məlumat veriləcək", - məlumatda qeyd olunub. Həmçinin əlavə olunub ki, şagirdlərin fiziki və psixoloji durumu məktəb rəhbərliyi və idarə tərəfindən diqqətdə saxlanılır.

## Xaricdə oxumuş 102 nəfərin diplomu tanınmadı

**Yanvar ayı üzrə 402 müraciətçinin 300-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 102 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyi məlumat yayıb.**



Bildirilib ki, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbi ilə 78, dövlət nümunəli olmayan diplom səbəbilə 6, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 5, təhsil forması səbəbilə 4, akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbilə 2, ekvivalenti olmayan ixtisas səbəbilə 2, tədris yükü səbəbilə 2, əczaçılıq ixtisası üzrə qiyabi formada təhsil alınması səbəbilə 1, bakalavr diplomu üzrə imtina verilmə səbəbilə 1, dövlət nümunəli olmayan diplom və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

"Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyə Respublikasından 146, Rusiya Federasiyasından 102, Ukraynadan 51, Birləşmiş Krallıqdan 23, Gürcüstandan 17, Polşa Respublikasından 10, Macarıstandan 9, İtaliya Respublikasından 8, Belarus Respublikasından 6, Almaniya Federativ Respublikasından 5, Amerika Birləşmiş Ştatlarından 4, İsveç Krallığından 2, Niderland Krallığından 2, Qazaxıstan Respublikasından 2, Avstraliya İttifaqından 1, Belçika Krallığından 1, Çex Respublikasından 1, Estoniya Respublikasından 1, İndoneziya Respublikasından 1, İran İslam Respublikasından 1, İsveçrə Konfederasiyasından 1, Koreya Respublikasından 1, Latviya Respublikasından 1, Litva Respublikasından 1, Misir Ərəb Respublikasından 1, Özbəkistan Respublikasından 1, Pakistan İslam Respublikasından 1, Qırğız Respublikasından 1, Türkmənistandan 1 müraciətin olduğu müşahidə olunur", - məlumatda qeyd olunur. Ən çox müraciət olunan ixtisaslara gəlincə, biznesin idarə edilməsi üzrə 38, iqtisadiyyat üzrə 27, maliyyə üzrə 26, menecment üzrə 26, hüquqşünaslıq üzrə 20 müraciət qeydə alınıb.

YENİ MÜSAVAT
Son səhifə
N 24 (8634) 8 fevral 2025



## Robot it Useyn Bolta meydan oxuyur

**Çinli mühəndislərin hazırladıqları “Black Panther 2.0" adlı robot it 100 metr məsafəni 10 saniyədən az müddətə qət edərək robot texnologiyasında yeni cığır açır. Robot heparda bənzər oynaq quruluşuna malikdir və süni intellektlə dəstəklənir. Öz nəticəsini mütəmadi olaraq yaxşılaşdıran bionik robot it dünyanın ən sürətli insanı olan sprinter Useyn Bolta meydan oxuyur. Robotun çəkisi 38 kq, hündürlüyü isə 63 sm-dir. Qeyd edək ki, U.Bolt 100 metr məsafədə tarixin ən sürətli sprinteri sayılır. O, 100 metri 9.58 saniyəyə qət edərək dünya rekordunu müəyyənləşdirib.**

## Yastığın yanına 1 ədəd limon qoyun - Körpə kimi yuxuya gedəcəksiniz

**Yaponiyalı alimlər yatarkən yastığın yanına limon qoymağın sağlamlıq üzərində gözlənilməz faydaları olduğunu açıqlayıb. Milli.Az xəbər verir ki, araşdırmalara görə, bu sadə amma təsirli vərdiş qan təzyiqini aşağı salmağa kömək edir, eyni zamanda depressiya və anksiyete əlamətlərini yüngülləşdirir.**

Yastığın yanına limon qoymaq gecə yatmazdan əvvəl mühitin daha təravətli və təmiz qoxmasını təmin edərkən eyni zamanda zehni rahatlama üçün də mühüm rol oynayır. Limonun aroması beyindəki stress hormonlarını tənzimləməyə kömək edə bilər. Bunun nəticəsində insanlar daha asan yatmağa başlayır və dərin yuxu müddəti artır.

Limon qoxusunun sinir sistemini sakitləşdirici təsiri olduğu bilinir. Araşdırmalar təbii qoxuların bədəndə rahatlama yaratdığını göstərir.

Depressiya və anksiyete ilə mübarizədə limonun təsiri də olduqca diqqətəlayiqdir. Limonun tərkibindəki flavonoidlər və təbii birləşmələr, ruh halını tənzimləməyə kömək edə bilər. Bu maddələr beynin kimyəvi quruluşunu təsir edərək serotonin istehsalını artıra bilər. Serotonin, xoşbəxtlik hormonu kimi tanınır və ruh halını yaxşılaşdırıcı təsir göstərir. Başucuna qoyulan limon gecə boyu bu birləşmələrin yayılmasına və daha rahat yuxu təcrübəsi yaratmağa kömək edə bilər.

# Xərçəngə səbəb olan konservlər barədə xəbərdarlıq edildi



**Rusiyalı həkimlər konservləşdirilmiş yeməklərin kifinin qaraciyər xərçənginə səbəb ola biləcəyini bildirirlər. Reabilitasiya həkimi Sergey Aqapkin və dietoloq Marina Makişa “Rossiya 1" kanalında yayımlanan ”Ən mühüm şey haqqında" verilişinin efirində belə deyiblər.**

Həkimlər kiflə konservləşdirilmiş qidaların xərçəngə səbəb ola biləcəyini bildiriblər. Mütəxəssislər izah ediblər ki, konservləşdirilmiş qidalarda qara kif əmələ gələ bilər, onun tullantıları orqanizmdə yığılaraq qaraciyər xərçənginin bir növü olan hepatokarsinomaya səbəb olur. Həkimin sözlərinə görə, rayonların birində kiflənmiş məhsul səbəbindən bu onkoloji xəstəliyin kəskin epidemiyası aşkar edildikdən sonra bu qənaətə gəliblər.

Ekspertlər onu da bildiriblər ki, konservləşdirilmiş məhsulda kif aşkar edilərsə, sadəcə bakteriyaların təsir etdiyi parçanı kəsmək kifayət etməyəcək. Çünki bu zaman yalnız kiflənmiş hissə deyil, bütün məhsul istehlak üçün yararsız hala düşür.

# Stres və yuxusuzluqda bu şorabanı yeyin



**Narahatlıq, təşviş və yuxusuzluq zamanı rasiona əlavə edilən qidalardan biri də şoraba ola bilər. Medicina.az xəbər verir ki, reabilitasiya həkimi Sergey Aqapkin duzlu kələmin yuxunun keyfiyyətinə və psixo-emosional vəziyyətə müsbət təsir göstərdiyini deyib.**

O qeyd edib ki, şorabanın naharda hər gün yeyilməsi gecə yuxusunun keyfiyyətini yaxşılaşdıra bilər.

Əslində digər fermentləşdirilmiş məhsulların da oxşar təsiri var. Onların müsbət xüsusiyyətləri bağırsaq mikroflorasına təsiri ilə izah olunur. Fermentasiya edilmiş qidalarda faydalı bağırsaq bakteriyalarını artıran, aktivləşdirən probiyotiklər var. Və bilirik ki, bağırsaqlar beyinlə bağlıdır: onun bakterial tarazlığının yaxşılaşdırılması mərkəzi sinir sisteminin sağlamlığını gücləndirir.

Demək olar ki, bütün dərin fermentasiya məhsulları, o cümlədən duzlu kələm, beyində müsbət dəyişikliklərə səbəb olur, o cümlədən insanın yuxuya getmə qabiliyyətini yaxşılaşdırır və narahatlığı azaldır". Bu məhsul hipertoniya və qeyri-sağlam böyrəkləri olan insanlar tərəfindən ehtiyatla qəbul edilməlidir.

## Uşaqlar babalarının külünü dağıdıb yedilər

**Kolorado ştatında azyaşlı uşaqlar şüşə xaçı ələ keçirib, onun içindəki külü dağıdıb və dadına baxıblar. “Medicina” xəbər verir ki, 3 və 2 yaşlı uşaqlar nəzarətsiz qaldıqları zaman şkafın ən üst rəfində olan konteyneri aşırıblar. Ana qayıdan zaman yerdə qəribə şəffaf toz görüb, uşaqların əlləri və ağzı da bu toza bulaşmışdı. Əvvəlcə nə baş verdiyini anlamayan qadın tozsoranla təmizləyərkən şüşəni göründə şok keçirib.**

Uşaqlar onun atasının kremasiyadan sonra qalan tozunu ələ keçirib, dağıdıb, hətta hanniballıq ediblər.

Qadın qalan tozu yenidən şüşəyə yığıb və özünü sakitləşdirməyə çalışıb. Uşaqlar tozdan bir zərər görməyib.

## Bunları bilirsinizmi?

* Qorillalara hamiləliyə qarşı dərman təsir edir.
* Ən çox susuz qala bilən heyvan siçovuldur.
* Straus yumurtasını bişirmək üçün 4 saat vaxt lazımdır.
*1 kq bal hazırlamaq üçün 1 arı 2 milyon gülə qonmalıdır.
* Şimpanze yeganə heyvandır ki, güzgüdə özünü tanıya bilir.
* Aranqutanq sözü afrikalıların dilində meşədən gəlmiş adam deməkdir.
* Krokodillər daş udurlar ki, daha dərinə bata bilsinlər.
* Hər gecə yatmamışdan qabaq üzünüzü yuyun, dişlərinizi fırçalayın, işıqları söndürün.
* Əgər evdəsinizsə, yuxunuz qəfildən gəlirsə, mütləq həmin an bütün işlərinizi buraxıb yatın. Əks halda, gecəni narahatlıqla və gec yata bilərsiniz. Bu da sizin üçün yaxşı olmaz.
* Yeni yuyulmuş yastıq üzü və yataq dəslərindən istifadə edin. Belə olan halda, gecə rahat dönə və sakit yata bilərsiniz. Bundan başqa, yatmazdan öncə otağınıza bir az əti vurun.
* Saatı olduğunuz otaqda saxlamayın. Saatın səsi sizi narahat etməmək üçün və gecə yarı yuxudan oyanmış olduğunuz halda görüb əsəbləşməməyiniz üçün onu gözünüzdən kənar bir yerə qoyun.
* Yastığınızı qabartılmış vəziyyətə salın. Bu rahat yuxuya getməyə kömək edir.
* Düzgün yastıq seçin. Yastıq yumşaq olmalıdır, ancaq çox yüksək olmalı, boynunuzu dəstəkləməli şəkildə dayanmalıdır.
* Pəncərələrinizə qalın pərdə taxın. Hətta çöldəki işıqların yanması belə sizin yatmağınıza mane ola bilər.

Fevral

## Xurmanı yeməzdən qabaq bir daha düşünün



**Qış mövsümünün müjdəçisi olan xurma (xırnik) şirin və qidalandırıcı meyvə olmaqla yanaşı, çox yeyilən zaman insan səhhətində bəzi problemlərə yol aça bilər. Bu barədə mütəxəssislər xəbərdarlıq edirlər. Onların sözlərinə görə, tərkibində A vitamini, kalium, fosforun bol olduğu bu meyvəni bəzi hallarda diqqətlə qəbul etmək lazımdır.**

Xurma tərkibindəki pəhriz lifi və antioksidantlar sayəsində ürək sağlamlığını dəstəkləyir, damarları təmiz saxlayaraq ürək xəstəliyi riskini azaldır. Bundan əlavə, xurmanın tərkibindəki kalium qan təzyiqini tarazlayır. Həmçinin qabığındakı lutein göz xəstəliklərindən qoruyur. Meyvənin tərkibindəki antioksidantlar xərçəng və insult riskini azaltmağa kömək edir. Mütəxəssislər vurğulayırlar ki, xurmanın orqanizmə verdiyi faydalarla yanaşı, onu yeyərkən nəzərə alınması lazım olan məqamlar da var:

“Xurmada təbii şəkər yüksək olduğundan şəkər xəstələri üçün uyğun olmaya bilər. Həddindən artıq qəbulu qan şəkərinin səviyyəsinin sürətlə artmasına və qəbizliyə gətirib çıxara bilər. Bəzi insanlarda xurmaya allergik reaksiyalar yarana bilər. Qaşınma, şişkinlik və mədə-bağırsaq narahatlığı kimi simptomlar baş verə bilər. Belə simptomlar müşahidə edildikdə xurma qəbulu dayandırılmalıdır”.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500